# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**"Müasir Şəhərsalma Vizyonu: Ənənə və İnnovasiyanın Harmoniyası"**




№ 035 (7445)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

8 may 2026-cı il.
Qiyməti 1 manat

# Bakı nefti və faşizm üzərində qələbə

İlham Əliyev: "Biz ümumi Qələbəmiz uğrunda canlarından keçənlərin müqəddəs xatirəsini ehtiramla yad edirik"




# ƏBƏDİYAŞAR LİDER!

## 10 may Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümüdür



**WUF13-ün təşkili ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin iclası keçirilib**




**Talassemiya: qohum nikahlarında risk faktoru**




**Yeni tikililərdə ən çox şikayət edilən problem hansıdır?**




**Qərb Ermənistanda "çadır qurur" - hədəfdə Ankara və Bakı da var**




**Azərbaycan toyuna tutulan toy**



# Bakı nefti və faşizm üzərində qələbə

## İlham Əliyev: "Biz ümumi Qələbəmiz uğrunda canlarından keçənlərin müqəddəs xatirəsini ehtiramla yad edirik"

### Rəsmi xronika

Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Bakı Ekspo Mərkəzində 19-cu Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgi və Forumu - "Caspian Agro Week" və 31-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi Sərgisi - "InterFood Azerbaijan" ilə tanış olublar.

***

Mayın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Volodimir Zelenski arasında telefon danışığı olub.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da İslam İnkişaf Bankı Qrupunun sədri Məhəmməd Əl-Casirin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonqu qəbul edib.



9 may - alman faşizmi üzərində qələbə tarixidir. İkinci Dünya müharibəsində faşizm üzərində qələbədən artıq 81 il ötür. Qafqazdan Berlinədək şanlı döyüş yolu keçmiş azərbaycanlıların qəhrəmanlığı, şücaəti yaddaşlarda həmişə yaşayır. Qürurlanırıq ki, minlərlə vətən oğlunun İkinci Dünya müharibəsindəki qəhrəmanlığı müxtəlif xalqlar tərəfindən öyrənilir və xalqımıza məxsus ərənlik bir nümunəyə çevrilib. Müharibə zamanı göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşının Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsi əlbəttə ki, bu savaşda Azərbaycan oğullarının rolunun böyük və əvəzsiz olduğunu göstərməklə yanaşı, igidliyindən də söz açır. Müharibədə Azərbaycanın müsəlləh əsgərləri silaha sarılaraq alman faşistləri ilə üz-üzə dayandılar. Gərgin bir döyüş yolu keçdilər. Müharibə başlanandan keçən qısa müddət ərzində, Azərbaycan ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edildi, respublikanın 700 mindən çox oğlan və qızları cəbhəyə yola salındı. Onların təxminən yarısı döyüş meydanlarında həyatlarını itirdilər. 170 mindən çox əsgər və zabitimiz isə müxtəlif orden və medallarla təltif edilib.

Azərbaycanlı çağırışçı və könüllülərdən formalaşdırılan 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı milli atıcı diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçdi. Xalqımızın qəhrəman övladları Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Simferopol, Odessa və digər şəhərlərin düşməndən azad edilməsində rəşadət göstərmiş oldular. Həmyerlilərimiz Polşa, Çexoslovakiya, Yuqoslaviya və digər ölkələrin azad olunmasında da yaxından iştirak etdilər. Xatırladaq ki, Berlinə ilk dəfə daxil olan hərbi hissələr içərisində 416-cı diviziyası da var idi. Azərbaycan Prezidenti İlham Əliyev müsahibələrinin birində qeyd edib ki, 416-cı diviziya Berlinin götürülməsində də fərqlənib: "Kayzer Vilhelm sarayını məhz bu diviziyanın döyüşçüləri tutublar. Azərbaycanlı leytenant Məcidovun rəhbərlik etdiyi bir qrup döyüşçü isə Brandenburq darvazaları üzərinə Qələbə bayrağını sancıb".




Berlin uğrunda döyüşlərdə kapitan X.Gülməmmədovun batalyonu xüsusilə fərqlənib. Kayzerin sarayı üstündə Qələbə bayrağını ilk dəfə mayın 1-də sancanlardan biri leytenant Vahab Osmanov düşmən gülləsindən həlak olub. Brandenburq qapıları üstünə mayın 2-də qələbə bayrağını taxanlardan biri isə leytenant A.Məcidov və onun döyüşçüləri olublar.

### QƏLƏBƏDƏ AZƏRBAYCANIM ROLU

Bu tarixi qələbədə Azərbaycanın, onun övladlarının və neftinin əhəmiyyəti böyükdür. İkinci Dünya müharibəsində qələbənin qazanılmasında Bakı nefti əvəzsiz rol oynamışdır. 1941-1945-ci illər müharibəsi zamanı Sovet İttifaqının istifadə etdiyi neftin 70 faizindən çoxu, benzinin 80 faizi, motor yağlarının isə 90 faizi Azərbaycanın payına düşürdü. Azərbaycan Berlinin alınması zamanı Almaniya səmasında uçuşlar həyata keçirən 7 min hərbi təyyarənin yanacaq təchizatında da mühüm rol oynadı. Xalqımız cəbhəyə 7 tondan çox donor qanı göndərərək, döyüşən ordunun ərzaq və isti geyimlə təchizatında fəallıq göstərdi. 1941-1945-ci illərin alovunu Azərbaycanın hər bir vətəndaşı yaşıyıb.

### YADDAŞLARDA YAŞAYAN QƏHRƏMANLIQ

Müharibədə od-alov püskürən cəbhələrdə ölümlə üz-üzə dayanan, qəhrəmanlıq göstərən insanlara və müharibə veteranlarına Azərbaycanda böyük diqqət və qayğı göstərilir. Veteranlara ikinci həyatı isə öz diqqət və qayğısı ilə Ulu Öndər Heydər Əliyev bəxş etmişdir. Ümummilli Lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə xüsusi diqqət yetirmiş və onlara hərtərəfli qayğı ilə yanaşmışdır. Müstəqilliyin ilk illərində veteranlara ədalətsiz münasibət heç kimin yadından çıxmayıb, AXC-Müsavat iqtidarı dövründə, hətta 9 May Qələbə Gününü də ləğv etmək fikrində idilər. Ulu Öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdışından sonra bu ədalətsiz münasibət aradan götürüldü, ədalət bərpa olundu və veteranlara layiq olduqları hörmət göstərilməyə başlandı. "Tarix bu gün də bilməlidir ki, İkinci Dünya müharibəsində Azərbaycan Respublikasının xidməti, fəaliyyəti, rolu çox böyük olmuşdur", - deyən Dahi Öndər Heydər Əliyev müharibə veteranlarını "Xalqımızın Qızıl Fondu" adlandırırdı.

Ölkəmizdə müharibə veteranlarına qayğının və onların sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Ulu Öndər Heydər Əliyevin bu sahədəki siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev İkinci Dünya müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranların qayğılarına həssaslıqla yanaşır. "Biz ümumi Qələbəmiz uğrunda canlarından keçənlərin müqəddəs xatirəsini ehtiramla yad edirik", - deyən dövlət başçısı Azərbaycanda veteranların diqqət və qayğı ilə əhatə olunduğunu bildirib.

Prezident İlham Əliyevin "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" Sərəncamı həmin kateqoriyalara aid vətəndaşlara növbəti yüksək diqqət və qayğının ifadə edir. Sərəncama əsasən, İkinci Dünya müharibəsində Qələbənin 81-ci ildönümü ilə əlaqədar həmin müharibənin iştirakçılarına 2750 manat birdəfəlik maddi yardım ödənilir. İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına isə 1500 manat məbləğində birdəfəlik maddi yardım verilir. Sərəncamın ümumilikdə 2 minə yaxın şəxsə şamil olunub, onlardan 13-ü İkinci Dünya müharibəsi iştirakçılarıdır.

Azərbaycanda hazırda İkinci Dünya müharibəsi veteranları yaşayır. 9 may-faşizm üzərində qələbədən 81 il ötsə də, həmin illərin ağrısını-acısını yaşayan insanlar hələ də var, müharibənin canlı şahidləri. Həmin illərdə baş verən hadisələrin, müharibənin şahidi və iştirakçısı olan insanların qələbə istəyi ilə Berlinə qədər getmələri, fədakarlıqları və ərənlikləri yaddaşlardan, tariximizdən heç vaxt silinməyəcək.

**Zümrüd BAYRAMOVA**

# "Müasir Şəhərsalma Vizyonu: Ənənə və İnnovasiyanın Harmoniyası"

## *Rəqəmsal İdeya Müsabiqəsinin bağlanış mərasimi keçirilib*

***Mayın 5-də "Şəhərsalma və Memarlıq İli" çərçivəsində Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı, YAP Gənclər Birliyi və Bakı Slavyan Universitetinin (BSU) birgə təşkilatçılığı ilə "Müasir Şəhərsalma Vizyonu: Ənənə və İnnovasiyanın Harmoniyası" Rəqəmsal İdeya Müsabiqəsinin bağlanış mərasimi keçirilib. Tədbirdən öncə Bakı Slavyan Universitetinin inzibati binasında Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzülüb. Sonra BSU-nun Heydər Əliyev adına muzey-lektoriyasında YAP sıralarına yeni qəbul olunmuş tələbə-gənclərlə görüş keçirilib və onlara partiyaya üzvlük vəsiqələri təqdim olunub.***

Tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Yeni Azərbaycan Partiyasının Media Qrupunun hazırladığı "Şəhərsalma və Memarlıq İli"nə həsr olunmuş videoçarx nümayiş olunub.

YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva "Müasir Şəhərsalma Vizyonu: Ənənə və İnnovasiyanın Harmoniyası" Rəqəmsal İdeya Müsabiqəsinin hesabatını təqdim edib. O bildirib ki, artıq ənənə halını almış Rəqəmsal İdeya Müsabiqəsinə hər il gənclərin diqqəti daha da artmaqdadır: "Belə ki, bu il sayca 4-cü dəfə keçirilən müsabiqəyə respublikanın 65 inzibati ərazi vahidindən ümumilikdə 1418 müraciət daxil olub. Qeydiyyatdan keçən gənclər arasından ən uğurlu 120 iştirakçı seçilib. İştirakçıların seçimi zamanı gender bərabərliyi də əsas prinsiplərdən biri olaraq götürülüb".









Z.Musayevanın sözlərinə görə, 30-dan çox təhsil müəssisəsini və 20-dən çox şəhər və rayonu təmsil edən gənclər bu gün komanda yarışlarında ən yaxşı olmaq üçün mübarizə aparıblar: "Rəqəmsal İdeya Müsabiqəsinin başlıca məqsədləri Prezident İlham Əliyevin gənclərin qarşısına qoyduğu strateji hədəflərə uyğun olaraq intellektual, innovativ düşüncəyə malik gənc liderlərin formalaşdırılmasına töhfə vermək, gəncləri şəhərsalma və memarlıq sahəsində tətbiq olunan müasir yanaşma və alətlərlə tanış etmək, o cümlədən cəmiyyətə faydalı texnoloji həllərin tətbiq olunmasını təşviq etməkdir. Bu məqsədlə 2 gün davam edən təlim və layihə proqramı çərçivəsində süni intellektə giriş, pitç texnikaları və təqdimat bacarıqları, ideya konseptinin işlənməsi və məhsul dizaynı kimi mövzularda təlimlər, o cümlədən gənclər siyasətində texnoloji inkişafın dəstəklənməsi, data əsaslı şəhər planlaması, ağıllı dizayn yanaşmaları kimi mövzularda ekspert görüşləri və panel müzakirələr təşkil olunub. "Müasir Şəhərsalma Vizyonu: Ənənə və İnnovasiyanın Harmoniyası" adlandırdığımız Rəqəmsal İdeya Müsabiqəsində bu gün komandalarımız 9 saat ərzində mentorlarla birgə "Tikdim ki, izim qala!" adlı komanda katalizatoru, "Köhnə kəndə yeni adət" adlı süni intellekt vörkşopu, "Bir qalanın sirri" adlı" intellekt rinqi, o cümlədən panel müzakirəsi, ideya müsabiqəsi və layihələrin təqdimatından ibarət 6 mərhələli yarışda iştirak ediblər".

Sonra Rəqəmsal İdeya Müsabiqəsinin hesabat videoçarxı təqdim edilib.

Tədbirdə çıxış edən Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev bildirib ki, Prezident İlham Əliyevin Sərəncamı ilə 2026-cı ilin Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ölkəmizdə şəhərsalma və memarlıq ənənələrinin çoxəsrlik zəngin keçmişini nəzərə almaqla mühüm tarixi əhəmiyyətə malikdir. Onun sözlərinə görə, Bakı şəhəri müasir şəhərsalma mədəniyyətinin bariz nümunəsini təşkil edir: "Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi sistemli siyasət nəticəsində şəhərimizin qədim tarixi ənənələri elm, texnologiya və innovasiyaların cəmləşdiyi mükəmməl şəhər modelini səciyyələndirir".

Rektor qeyd edib ki, Bakının ev sahibliyi edəcəyi növbəti mötəbər tədbirlərdən biri 13-cü Ümumdünya Şəhərsalma Forumu (WUF13) olacaq: "2024-cü ildə şəhərimizdə keçirilmiş COP29 və bir çox digər tədbirlərdə olduğu kimi, "WUF13"-də də yüz milyonlarla insanın gündəlik həyatına təsir edəcək qərarların qəbul ediləcəyi şübhəsizdir. Danılmaz reallıqdır ki, Bakı siyasi və beynəlxalq əhəmiyyəti ilə bərabər tarixilik, müasirlik və innovasiyaların mərkəzi olaraq dünyanın qlobal siyasət, mədəniyyət və inkişaf paytaxtlarından birinə çevrilib".

A.Nağıyev deyib ki, keçirilən müsabiqənin əsas məqsədi ənənəvi Azərbaycan memarlıq dəyərlərinin müasir şəhərsalma texnologiyaları ilə harmonik şəkildə birləşdirilməsidir: "Burada rəqəmsal həllərin, 3D modelləşdirmənin və innovativ planlaşdırma metodlarının tətbiqi xüsusi əhəmiyyət daşıyır. Bu yanaşma şəhər mühitinin daha funksional, ekoloji və estetik baxımdan inkişafına şərait yaradır".

Onun sözlərinə görə, Bakı Slavyan Universitetinin "Şəhərsalma və Memarlıq İli" və digər müvafiq fəaliyyət planları çərçivəsində müxtəlif tədbirlər keçirilir, fənlərarası tədqiqatlar təşviq edilir, dayanıqlı və inklüziv universitet modelinin qurulması istiqamətində addımlar atılır. "Artıq dörd ildir ki, BSU-nun uğurla həyata keçirdiyi "İnklüziv təhsildən inklüziv cəmiyyətə" layihəsinin daha inklüziv şəhər icması üçün  müəllim hazırlığı, bacarıqların və pedaqoji həllərin yaradılması istiqamətində mühüm rol oynaya biləcəyinə inanırıq" , - deyə rektor vurğulayıb.

Çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, müasir dövrdə şəhərsalma yalnız infrastruktur quruculuğu deyil, həm də milli kimliyin qorunması, sosial rifahın yüksəldilməsi və davamlı inkişaf prinsiplərinin tətbiqi baxımından mühüm əhəmiyyət daşıyır: "Qlobal urbanizasiya prosesi, sürətli texnoloji tərəqqi və günümüzün ekoloji çağırışları ilə əlaqədar meydana çıxan yeni yanaşmalar fonunda Azərbaycan ənənə ilə müasirliyin vəhdətini uğurla təmin edən nadir ölkələrdən biri kimi çıxış edir. Ölkəmizdə bu sahədə həyata keçirilən tədbirlər, o cümlədən genişmiqyaslı quruculuq işləri davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi kimi xüsusi önəm daşıyır".

Tahir Budaqov vurğulayıb ki, Azərbaycanın müasir siması xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı və fəaliyyəti ilə sıx bağlıdır: "Ulu Öndər istər SSRİ dövründə, istərsə də müstəqillik illərində ölkəmizə rəhbərlik etdiyi zaman şəhərsalma siyasəti strateji prioritetlərdən biri kimi müəyyənləşdirilərək paytaxt Bakıda və respublikanın bütün bölgələrində milli-mənəvi dəyərlərə əsaslanan, tarixi yaddaşı qoruyan və gələcəyə yönələn məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Tarixi abidələrin qorunması, milli ənənələrin yaşadılması, çağdaş memarlıq üslublarının tətbiqi nəticəsində şəhərlərin simasında harmoniyanın yaradılması Azərbaycanı regionda və daha geniş coğrafiyada fərqləndirən mühüm amillərdən biri olmuşdur.

***Ardı Səh. 4***

# "Müasir Şəhərsalma Vizyonu: Ənənə və İnnovasiyanın Harmoniyası"

## *Rəqəmsal İdeya Müsabiqəsinin bağlanış mərasimi keçirilib*

Əvvəli Səh. 3

Heydər Əliyev siyasətini bütün istiqamətlərdə müvəffəqiyyətlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə görülən işlər, eləcə də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr isə paytaxt Bakının modernləşməsinə və regionların sosial-iqtisadi inkişafına təkan verməklə şəhərsalma təcrübəsi baxımından mütərəqqi nümunə yaratmış və tarixi irsimizin gələcək nəsillərə ötürülməsinə etibarlı zəmin formalaşdırmışdır".

"Bu gün Bakı dünyanın ən gözəl və müasir şəhərlərindən biri kimi tanınır. Bir tərəfdə əsrlərin yaddaşını yaşadan tarixi məkanlar, digər tərəfdə isə müasir memarlıq inciləri - bu harmonik vəhdət Bakını unikal şəhərə çevirmişdir. Paytaxtımızın beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etməsi, turistlər üçün cəlbedici məkana çevrilməsi də aparılan məqsədyönlü siyasətin nəticəsidir. Bunlarla yanaşı, hazırda işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış Proqramının mühüm tərkib hissəsi kimi innovativ yanaşmalar əsasında "ağıllı şəhər" konsepsiyası uğurla həyata keçirilməkdədir. BMT-nin Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyasının 2026-cı ildə Bakı şəhərində keçirilməsinə dair qərarın qəbulu Azərbaycanın dayanıqlı inkişaf siyasətinə, o cümlədən beynəlxalq müstəvidə şəhərsalma prosesinə töhfələrinə verilən yüksək qiymətin bariz göstəricisidir" , - deyə YAP Sədrinin müavini əlavə edib.










Tahir Budaqov qeyd edib ki, Yeni Azərbaycan Partiyası hər zaman ölkəmizin inkişafına yönəlmiş təşəbbüslərlə çıxış etmişdir: "Partiya Ümummilli Liderin ideyalarını rəhbər tutaraq dövlətçiliyin möhkəmləndirilməsində və siyasi sabitliyin qorunmasında mühüm rol oynayır. YAP cəmiyyətin bütün təbəqələrini, o cümlədən gəncləri öz sıralarında birləşdirərək ölkəmizin gələcəyi naminə mühüm layihələr həyata keçirir. Bu gün inam və qürurla qeyd edirik ki, milli-mənəvi dəyərlərə sadiq və möhkəm əqidəli Azərbaycan gəncliyi müxtəlif sahələrdə yüksək fəallıq nümayiş etdirir və respublikamızı beynəlxalq arenada layiqincə təmsil edir".

YAP Sədrinin müavini bildirib ki, artıq ənənə halını almış və innovativ ideyaların təşviqi üçün mühüm platforma olan Rəqəmsal İdeya Müsabiqəsi gənclərimizin istər intellektual potensialının üzə çıxarılması, istər ölkənin ictimai-siyasi həyatında fəal iştirakı, istərsə də kommunikasiya bacarıqlarının artırılması baxımından böyük əhəmiyyət kəsb edir: "Burada təqdim olunan layihələr təsdiqləyir ki, Azərbaycan gəncliyi yüksək intellektə, geniş dünyagörüşünə və dövrün çağırışlara adekvat müasir düşüncə tərzinə malikdir. Rəqəmsallaşma bu gün dünyanın inkişaf istiqamətlərini müəyyən edən əsas amillərdən biridir. Şəhərsalma və memarlıq sahəsində rəqəmsal texnologiyaların tətbiqi isə resurslardan daha səmərəli istifadə olunmasına və vətəndaş məmnunluğunun artırılmasına xidmət edir. Bu baxımdan, müsabiqə çərçivəsində irəli sürülən ideyalar gələcəkdə real layihələrə çevrilərək ölkəmizin inkişafına güclü təkan verə bilər. Bu gün bağlanış mərhələsinin keçirildiyi bu intellektual yarışmada iştirak edən bütün gəncləri ürəkdən təbrik edirəm. Əslində, müsabiqəyə qatılan hər bir komanda özünü qalib hesab edə bilər. Çünki belə kreativ platformalarda təmsil olunmaq Heydər Əliyev ideyalarına, Prezident İlham Əliyevin siyasətinə və Yeni Azərbaycan Partiyasının prinsiplərinə sonsuz inamın birmənalı ifadəsidir. İnanıram ki, hər biriniz öz bilik və bacarığınızla Azərbaycanın gələcək inkişafında önəmli rol oynayacaqsınız".



Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev çıxışında bildirib ki, bu müsabiqə gənclərin innovativ potensialına göstərilən yüksək diqqətin və dövlətin gələcəyə baxışının real ifadəsidir. Onun sözlərinə görə, gənclər siyasəti dövlətlərin inkişaf strategiyalarının mərkəzində dayanır: "Qlobal səviyyədə gənclər artıq şəhərsalma gündəliyinin formalaşmasında əsas maraqlı tərəflərdən biri kimi çıxış edir. Onların ideyaları, yanaşmaları və texnoloji bacarıqları şəhərlərin gələcək inkişaf trayektoriyasını müəyyən edir. Bu yanaşma təsadüfi deyil. Hazırda dünya əhalisinin təqribən 55 faizi şəhərlərdə yaşayır. Urbanizasiya sürətlə davam edən qlobal prosesdir və 2050-ci ilə qədər dünya əhalisinin təxminən 70 faizi şəhərlərdə yaşayacaq. Sürətli urbanizasiya şəhərlərlə bağlı əhalinin artan tələbatının qarşılanması, iş yerlərinin yaradılması, müasir şəhər xidmətlərinin təmin edilməsi və ekoloji tarazlığın qorunması kimi mürəkkəb çağırışları ön plana çıxarır". Dövlət Komitəsinin sədri qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə gənclərin təhsili, innovativ düşüncəsi, liderlik keyfiyyətləri və dövlət idarəçiliyində iştirakı sistemli şəkildə dəstəklənir: "Bu siyasətin nəticəsi olaraq bu gün Azərbaycanda yeni bir nəsil formalaşıb. Bu nəsil texnoloji cəhətdən daha bilikli və hazırlıqlı, çoxsəviyyəli məlumat sistemləri, iri həcmli data ilə işləyən və qlobal prosesləri yaxından izləyərək onların fəal iştirakçısı olan bir nəsildir. Hazırda yekun vurulan müsabiqə bu transformasiyanın çox yaxşı əyani nümunəsidir".

A.Quliyev diqqətə çatdırıb ki, şəhərsalma və memarlıq sahəsi indi bütün dünyada keyfiyyətcə yeni mərhələyə keçid alır: "Bu gün şəhər və region miqyaslı layihələr böyük data əsasında hazırlanır, qərarlar rəqəmsal modellərlə yoxlanılır, şəhər sistemləri əvvəlcədən simulyasiya edilir. Azərbaycan bu transformasiyanın aktiv iştirakçısıdır. Son illərdə ölkənin 79 şəhərindən 68-nin yeni Baş planlarının hazırlanması və təsdiqi təmin olunub. Bu iş hazırda da intensiv davam edir".

Dövlət Komitəsinin sədri vurğulayıb ki, işğaldan azad edilmiş ərazilərin ümumi planı, həmin ərazilərdə yerləşən 12 şəhərdən 8-nin baş planı, eləcə də 101 qəsəbə və kənd yaşayış məntəqəsinin ərazi planlaşdırılması sənədləri hazırlanaraq təsdiq olunub: "Bu sənədlər vətəndaşlarımızın geri dönüşü üçün müasir və təhlükəsiz yaşayış mühitinin formalaşdırılmasına, həmçinin həmin ərazilərdə tikinti fəaliyyətinin səmərəli şəkildə həyata keçirilməsinə imkan yaradıb. Azərbaycan Prezidenti İlham Əliyevin xüsusi diqqəti və nəzarəti altında Qarabağ və Şərqi Zəngəzurda "Ağıllı kənd" və "Ağıllı şəhər" konsepsiyalarına əsaslanan sosial ədalətli və dayanıqlı məskunlaşma modeli qurulmaqda, eyni zamanda zəruri yol-nəqliyyat, elektrik, qaz, su, təhsil, səhiyyə və yaşayış infrastrukturu ardıcıl şəkildə bərpa edilməkdədir. Nəticədə artıq 41 yaşayış məntəqəsinə köç təmin olunub, həmin ərazilərdə təqribən 33 min nəfərə yaxın məcburi köçkün olmaqla ümumilikdə 81 mindən çox insanın yaşaması, işləməsi və təhsil alması təmin edilib".

A.Quliyev əlavə edib ki, Prezident İlham Əliyev tərəfindən 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi bir neçə mühüm mesaj verir: "Şəhərsalma ölkənin inkişaf strategiyasının mərkəzində dayanır, bu sahədə keyfiyyətcə yeni mərhələyə keçid baş verir, gələcəyin şəhərlərinin formalaşdırılması prioritet istiqamət kimi müəyyən edilir.Bakının bu ay ev sahibliyi edəcəyi BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası xüsusi əhəmiyyət kəsb edir. Ümumdünya Şəhərsalma Forumu BMT-nin Məskunlaşma Proqramı tərəfindən təşkil olunan və şəhərsalma sahəsində ən böyük, ən inklüziv və ən nüfuzlu qlobal platforma hesab olunur. Bu günə qədər artıq 175 ölkədən təqribən 27 min iştirakçı qeydiyyatdan keçib və bu proses davam edir. Forumun əsas xüsusiyyəti onun açıq və çoxsəviyyəli strukturudur. Forum yalnız rəsmi müzakirələrdən ibarət deyil. Tədbir çərçivəsində gənclər üçün xüsusi platformalar nəzərdə tutulur: Gənclər Assambleyası, gənclərin liderlik və innovasiya təşəbbüslərinə həsr olunmuş sessiyalar, startap və texnoloji layihələrin təqdim olunduğu platformalar, interaktiv müzakirələr və şəbəkələşmə imkanları. Əminəm ki, Azərbaycan gəncləri bu platformada fəal iştirak edəcək və öz innovativ yanaşmaları ilə qlobal şəhərsalma gündəliyinə layiqli töhfə verəcəklər".

**Ardı Səh. 5**

# “Müasir Şəhərsalma Vizyonu: Ənənə və İnnovasiyanın Harmoniyası”

## *Rəqəmsal İdeya Müsabiqəsinin bağlanış mərasimi keçirilib*

Əvvəli Səh. 4

Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev Rəqəmsal İdeya Müsabiqəsinin gənclərin intellektual inkişafı baxımından mühüm əhəmiyyətə malik olduğunu deyib: ”Bugünkü Azərbaycan gəncliyi daha bacarıqlı və rəqabətədavamlıdır. Təbii ki, hər bir nəsil müqayisədə bir addım irəli ata bilirsə, məhz bu halda biz inkişafdan danışa bilirik”.

Nazir bildirib ki, növbəti nəsillər dövlət müstəqilliyinin qorunub saxlanılmasında, Azərbaycanın daha da inkişaf etməsində öz üzərinə düşən öhdəlikləri layiqincə yerinə yetirə biləcəklər: ”Ölkəmizdə COP29 keçirilərkən həmin tədbirdə iştirak edən dövlət və hökumət başçıları bu konfransın təşkilatçılığına cəlb edilmiş Azərbaycan gənclərinin bacarıqlarını xüsusi olaraq vurğulayırdılar”.

Emin Əmrullayev söyləyib ki, bir neçə gündən sonra ölkəmizdə Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyası keçiriləcək: ”Bu mötəbər tədbir Azərbaycanın bir daha dünya miqyasında tanınması baxımından önəmli təşəbbüsdür. İnanıram ki, tədbirlə əlaqədar qarşıda duran müxtəlif vəzifələrlə yanaşı, bu, Azərbaycan gəncliyi üçün öyrənmək, özünü qlobal arenada rəqabətədavamlı olduğunu nümayiş etdirmək üçün növbəti bir imkandır. Məhz müxtəlif ali təhsil müəssisələrində təhsil alan və yaxud da məzun olmuş tələbələrin və gənc mütəxəssislərin bu Forumdan əsaslı şəkildə bəhrələnəcəyinə əminlik ifadə edirəm. İnanıram ki, bu faktor onlar üçün ömür boyu davam edəcək bir təcrübəyə çevriləcəkdir”.

Elm və təhsil naziri qeyd edib ki, ”Şəhərsalma və Memarlıq İli” çərçivəsində ali təhsil müəssisələrinin uğurlu nəticələrini uzun müddət ölkəmizin inkişafına təsir edən mühüm amil kimi xatırlayacağıq: ”Bu, təbii ki, ilk növbədə kadr hazırlığı məsələsidir. Bu yaxınlarda Azərbaycan Memarlıq və İnşaat Universitetinin yubileyi







qeyd olunub. Xüsusilə bu ali təhsil ocağının məzunlarının şəhərsalma və memarlıq sahəsində rolunu vurğulamaq lazımdır. Amma eyni zamanda şəhərlər haqqında danışarkən aydın olur ki, bu, yalnız memarlıq məsələsi deyil. Burada çox geniş şəhərdə birgə yaşayış və urbanizasiyanın müasir tələblərinə cavab verən insanların istər sosial-mədəni davranışları, istər onların gündəlik həyatının təşkili, istərsə də böyük şəhərlərin idarəetməsində logistik məsələlərdən söhbət gedir. Yəni bu tipli fərqli məsələlərin həlli müxtəlif səpkili kadrları tələb edir. İnanıram ki, Azərbaycan məktəbləri və ali təhsil müəssisələri gələcək nəsillərin hazırlanmasında qarşıya qoyulmuş vəzifələrə nail ola biləcəklər”.

Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbov qeyd edib ki, Rəqəmsal İdeya Müsabiqəsi gənclərin innovativ düşüncəsini, texnoloji bacarıqlarını və komanda ruhunu inkişaf etdirmək baxımından olduqca əhəmiyyətlidir.

Nazir vurğulayıb ki, Prezident İlham Əliyev gənclərin intellektual və innovativ potensialının inkişafını prioritet istiqamətlərdən biri kimi müəyyən etmişdir və bu sahədə ardıcıl dəstək siyasəti həyata keçirir: ”Bu yanaşma öz əksini Azərbaycan gənclərinin inkişafı strategiyasında və müvafiq dövlət proqramlarında aydın şəkildə tapır. Bu strategiyalar çərçivəsində gənclərin sahibkarlıq, məşğulluq və şəxsi inkişaf sahələrində hərtərəfli dəstəklənməsi üçün mühüm imkanlar yaradılmışdır. Xüsusilə, bu proqramlar regionlarda yaşayan gənclərin bərabər imkanlardan faydalanmasını təmin etməyə yönəlib. Gənclər və İdman Nazirliyi olaraq biz il ərzində gənclərin ideyalarının dəstəklənməsi istiqamətində müxtəlif layihələr həyata keçiririk. Bu istiqamətdə dövlət və özəl sektor tərəfdaşları ilə birgə müxtəlif proqramlar reallaşdırırıq və gələcəkdə bu dəstəyi daha da genişləndirməyi planlaşdırırıq. Bu sırada hakatonlar, ideya müsabiqələri və startap yönümlü forumlar xüsusi yer tutur. Eyni zamanda, gənclərin karyera inkişafı üçün sərgilər, əmək yarmarkaları, mentorluq və təlim proqramları təşkil olunur. Bununla yanaşı, süni intellekt və rəqəmsal texnologiyalar sahəsində gənclərin bacarıqlarının inkişafı istiqamətində də xüsusi təşəbbüslər həyata keçirir, onları gələcəyin əmək bazarına hazırlamağı prioritet hesab edirik. Xüsusilə vurğulamaq istərdim ki, hakaton və innovativ ideyaların inkişafına daim dəstək göstəririk. Bu cür platformalar gənclərin kreativ düşüncəsini reallaşdırmaq, onları real həllər üzərində işləməyə təşviq etmək baxımından böyük əhəmiyyət daşıyır. Gənclərin ideyaları ölkəmizin gələcəyidir”.

Sonra ”Müasir Şəhərsalma Vizyonu: Ənənə və İnnovasiyanın Harmoniyası” Rəqəmsal İdeya Müsabiqəsinin qalibləri mükafatlandırılıb. I yerin qalibi ”Zəngəzur”, II yerin qalibi ”İçərişəhər”, III yerin qalibi ”İsmailiyyə” komandaları, ”Bir qalanın sirri” intellektual oyunun qalibi isə ”İsa Bulağı” olub. Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb. Daha sonra Bakı Slavyan Universitetinin tələbələrinin ifasında konsert proqramı təqdim olunub.

# Yeni Azərbaycan Partiyasının nümayəndələri Ulu Öndər Heydər Əliyevin xatirəsini yad ediblər





Mayın 7-də müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 103-ci ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının nümayəndələri Fəxri xiyabanda Ulu Öndərin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

# Heydər Əliyev sosial inkişaf strategiyasının müəllifidir
















Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev sosial inkişaf strategiyasının müəllifidir" mövzusunda tədbir keçirilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Yeni Azərbaycan Partiyasının (YAP) birgə təşkil etdiyi tədbirdə əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev, YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, YAP Yasamal Rayon Təşkilatının sədri Bəxtiyar Nəbiyev, YAP Veteranlar Şurasının üzvü, akademik Misir Mərdanov və b. iştirak ediblər. Nazirliyin tabeliyində DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində keçirilən tədbirin iştirakçıları görkəmli dövlət xadimi Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolardan, Mərkəzin benefisiarlarının Ulu Öndərə həsr edilmiş əl işlərindən ibarət sərgi ilə tanış olublar.

Anar Əliyev çıxış edərək Ümummilli Lider Heydər Əliyevin müasir müstəqil Azərbaycan dövlətinin qurulması və inkişafı naminə misilsiz tarixi xidmətlərini diqqətə çatdırıb. Bildirib ki, Ulu Öndər vətəndaş rifahının təminatını dövlət siyasətinin başlıca istiqamətlərindən biri kimi müəyyən edib. 1993-2003-cü illərdə sosial inkişafın təmin olunması üçün Ulu Öndər Heydər Əliyev tərəfindən 60-dan artıq sənəd imzalanıb. Həmin dövrdə pensiya və müavinətlərin orta aylıq məbləği 8 dəfə, orta aylıq əməkhaqqı 6 dəfədən çox artıb. Ümummilli Lider Heydər Əliyevin müdrik və uzaqgörən siyasətinin möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən yüksək səviyyədə davam və inkişaf etdirilməsi nəticəsində ölkəmiz böyük nailiyyətlər əldə edib, möhtəşəm tarixi Zəfər qazanıb. Sosial sahədə də mühüm addımlar atılır və dövlətimizin başçısının tapşırıqları ilə son 7 ildə 5 böyük sosial islahat paketi icra olunaraq sosial ödənişlərdə ciddi artımlar edilib.

Ulu Öndərin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının fəaliyyəti də xalqa, dövlətə xidmət məramına söykənir və Prezident cənab İlham Əliyevin Sədri olduğu Partiya ölkəmizin dinamik və hərtərəfli inkişafı proseslərində böyük xidmətlər göstərir.

Tahir Budaqov bildirib ki, 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev ilk növbədə ölkədə dərin sosial-iqtisadi böhranın aradan qaldırılmasına nail olub, iqtisadi sabitliyi təmin etməklə yanaşı, sosial sahədə əsaslı islahatların təməlini qoyub. Ulu Öndərin rəhbərliyi ilə hazırlanaraq 1995-ci ildə qəbul olunmuş müstəqil Azərbaycanın ilk Konstitusiyasında Azərbaycan vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi təsbit edilib. Ümummilli Lider Heydər Əliyev rəhbərliyi dövründə ölkəmizdə sosial siyasətin institusional əsasları yaradılıb, cəmiyyətin bütün təbəqələri dövlət qayğısı ilə əhatə olunub. Dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşının rifahı və mənafeyi dayanır" fikri sosialyönümlü siyasətin əsasını təşkil edir.

YAP-ın proqramında da sosialyönümlü siyasətin əsas istiqamətlərdən biri olduğunu qeyd edən Tahir Budaqov Partiyanın Ulu Öndərin ideyalarına sadiq qalaraq sosial ədalət, vətəndaş rifahı, güclü dövlət prinsiplərinin həyata keçirilməsində fəal iştirak etdiyini bildirib.

Musa Quliyev müstəqil Azərbaycan dövlətinin sosial inkişaf strategiyasının müəllifi olan Ümummilli Lider Heydər Əliyevin əhalinin sosial müdafiəsinə daim xüsusi diqqət və qayğı göstərdiyini vurğulayıb. O, Ulu Öndərin tapşırıqları əsasında ölkənin sosial qanunvericilik bazasının yaradılması üçün aparılan işlərdən bəhs edib. Misir Mərdanov Ümummilli Lider Heydər Əliyevin sosial sahənin, milli təhsil sisteminin inkişafı naminə göstərmiş olduğu xidmətləri diqqətə çatdırıb.

Daha sonra Nazirliyin 64 əməkdaşına YAP-ın üzvlük vəsiqələri təqdim edilib. Nazirlik sistemi üzrə YAP üzvləri olan əməkdaşların sayının 5500-ə yaxın olduğu qeyd olunub. Partiyaya yeni üzv qəbul edilən əməkdaşlar göstərilən yüksək inam və etimada görə minnətdarlıqlarını ifadə ediblər. DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin benefisiarlarının ifalarından ibarət inklüziv konsert proqramı təqdim olunub.

# Heydər Əliyevin dövlətçilik fəlsəfəsi: tarixi dəyərlər əsasında gələcəyə baxış

***Mayın 7-də Yeni Azərbaycan Partiyası (YAP) və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Heydər Əliyevin dövlətçilik fəlsəfəsi: tarixi dəyərlər əsasında gələcəyə baxış" mövzusunda tədbir keçirilib. Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.***




Çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, bu gün müstəqil Azərbaycanın qazandığı çoxsaylı nailiyyətlərin və möhtəşəm qələbələrin qürurunu yaşamaqla müdrik dövlət xadimi Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərini sonsuz minnətdarlıqla xatırlayırıq: "Ulu Öndər siyasi və ideoloji nöqteyi-nəzərdən bir-birindən fərqli iki dövrdə - istər SSRİ dönəmində, istərsə də dövlət müstəqilliyinin bərpasından sonra





respublikamıza uğurla rəhbərlik edərək dövlətimiz üçün taleyüklü məsələlərin həllinə nail olmaqla millətimizin parlaq gələcəyini təmin etmişdir. Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan olduqca mürəkkəb sınaqlardan keçmişdir. Onun güclü siyasi iradəsi, sarsılmaz qətiyyəti və dərin strateji baxışı sayəsində ölkəmiz xaosdan və parçalanma təhlükəsindən xilas olaraq sabitlik və inkişaf yoluna qədəm qoymuşdur. Ulu Öndər qeyd edirdi ki, müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə dövlət müstəqilliyinin möhkəmləndirilməsi üçün qanunun aliliyi, ictimai-siyasi institutların səmərəli fəaliyyəti təmin edilmiş, azərbaycançılıq ideologiyasına əsaslanan mütərəqqi siyasətlə cəmiyyətin bütün təbəqələri vahid amal ətrafında birləşdirilərək milli həmrəylik gücləndirilmişdir. Dövrün çağırışlarına uyğun həyata keçirilən balanslaşdırılmış və çoxvektorlu xarici siyasət kursu ölkəmizin beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi layiqli yer tutmasına, milli maraqlarını, o cümlədən işğala məruz qalmış bir dövlət kimi haqlı mövqeyini qətiyyətlə müdafiə etməsinə imkan yaratmışdır. Müasir dövlətçilik tariximizin ən qürurverici məqamı - Azərbaycanın şanlı Zəfər zirvəsinə yüksəlməsi də Ulu Öndərimizin tükənməz siyasi irsi ilə bağlıdır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Heydər Əliyev dühası bugünkü Azərbaycanın uğurlu inkişafının təməlində dayanan amildir".





Tahir Budaqov vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin milli maraqlara əsaslanan siyasəti ölkəmizin keyfiyyətcə yeni inkişaf mərhələsinə yüksəlməsini şərtləndirmişdir: "Qlobal proseslərə geniş təsir imkanına malik regional güc mərkəzinə çevrilən Azərbaycan öz ərazi bütövlüyü və mütləq suverenliyini təmin etdikdən sonra Cənubi Qafqazda faktiki sülh şəraitində qarşılıqlı etimad mühiti yaratmışdır. Hazırda işğaldan azad edilmiş ərazilərdə nəhəng bərpa-quruculuq işləri aparılır və Böyük Qayıdış uğurla davam etdirilir ki, bu da Azərbaycanın iqtisadi gücünü, siyasi iradəsini və gələcəyə inamını aydın şəkildə nümayiş etdirir. Bu gün qalib Azərbaycan xalqının iradəsini ifadə edən Yeni Azərbaycan Partiyası cəmiyyətin aparıcı siyasi qüvvəsi kimi Heydər Əliyev ideyalarına sadiq qalaraq öz fəaliyyətini dövrün çağırışlarına uyğun qurmaqla strateji hədəflərin gerçəkləşməsinə mühüm töhfələr verir".

YAP Sədrinin müavini bildirib ki, milli məqsədlərini ardıcıl şəkildə həyata keçirən müstəqil dövlətimiz möhkəm təməl üzərində gələcəyə doğru inamla irəliləyir: "Belə bir tarixi mərhələdə Heydər Əliyev irsini, Ulu Öndərin müəyyən etdiyi ideoloji xətti yaşatmaq, dövlətçiliyimizi daha da möhkəmləndirmək və Prezident İlham Əliyevin qarşımıza qoyduğu bütün vəzifələri yerinə yetirmək üçün hər birimiz milli maraqları daim qorumalı, dövlətə sədaqətlə xidmət etməliyik. Heydər Əliyev ideyaları yaşadıqca müstəqil Azərbaycan daha da güclənəcək və yeni uğurlara imza atacaqdır".

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, Əməkdar incəsənət xadimi Ceyran Mahmudova çıxışında bildirib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycan tarixində yalnız qüdrətli dövlət xadimi, uzaqgörən siyasətçi kimi deyil, həm də milli-mənəvi dəyərlərimizin qoruyucusu, mədəniyyətimizin və incəsənətimizin əsl hamisi kimi əbədi yaşayır: "Onun adı çəkiləndə göz önündə təkcə siyasi uğurlar deyil, eyni zamanda, zəngin mədəni mühit, inkişaf edən incəsənət, qorunan milli kimlik canlanır. Heydər Əliyev fəaliyyətinin bütün mərhələlərində mədəniyyətə xüsusi diqqət yetirib. O, hələ Sovet dövründə Azərbaycana rəhbərlik etdiyi illərdə milli mədəniyyətin inkişafı üçün böyük işlər görüb. Onun sonsuz qayğısı və diqqəti nəticəsində teatrlarımızın fəaliyyəti genişlənib, muzeylər zənginləşdirilib, kitabxanalar yenilənib. O dövrdə Azərbaycan incəsənəti təkcə ittifaq daxilində deyil, beynəlxalq səviyyədə də öz sözünü deməyə başlamışdı".

Rektor əlavə edib ki, Ulu Öndər Heydər Əliyev sənət adamlarını sadəcə yaradıcı insanlar kimi deyil, xalqın mənəvi sərvəti kimi dəyərləndirir, incəsənət xadimlərinə böyük ehtiram göstərir, onların yaradıcılığını yüksək qiymətləndirirdi: "Bəstəkarlar, yazıçılar, aktyorlar, rejissorlar, rəssamlar, bir sözlə, bütün yaradıcı insanlar Onun diqqət və qayğısını hiss edirdi".

Ceyran Mahmudova qeyd edib ki, müstəqillik illərində Heydər Əliyevin mədəniyyət sahəsində gördüyü işlər müstəsna əhəmiyyət kəsb edir: "Bu dövrdə tarixi abidələrin qorunması, milli irsin bərpası, folklorun, musiqinin, ədəbiyyatın inkişafı istiqamətində mühüm addımlar atıldı. Azərbaycan mədəniyyəti yeni bir mərhələyə qədəm qoydu. Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi bu strateji xətt uğurla davam etdirilir. Prezident İlham Əliyev mədəniyyət və incəsənət sahəsini daim diqqətdə saxlayır".

Onun sözlərinə görə, Azərbaycanın müasir tarixində mühüm və şərəfli yer tutan 44 günlük Vətən müharibəsi dövlətimizin qüdrətini, xalqımızın sarsılmaz birliyini və Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi strateji inkişaf xəttinin uğurla davam etdirildiyini bir daha bütün dünyaya nümayiş etdirdi. "Qarabağda mədəni həyatın dirçəldilməsi istiqamətində mühüm addımlar atılır, Şuşa və digər şəhərlərimizdə beynəlxalq musiqi festivalları, mədəniyyət günləri, incəsənət tədbirləri təşkil olunur, Azərbaycan mədəniyyətinin zənginliyi artıq öz doğma məkanında yenidən səslənir", -deyən Ceyran Mahmudova əlavə edib ki, bu gün gənc nəslin inkişafı da dövlət siyasətinin prioritet məsələləri sırasındadır.

Rektor bildirib ki, gənc istedadların üzə çıxarılması, onların yaradıcılıq imkanlarının genişləndirilməsi daim dövlətin diqqət mərkəzindədir: "Bu kontekstdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin fəaliyyəti xüsusi əhəmiyyət daşıyır. Universitetimiz uzun illərdir ki, ölkəmizin mədəni həyatına töhfə verən peşəkar kadrlar yetişdirir. Çalışırıq ki, tələbələrimiz yalnız peşəkar sənətkar deyil, eyni zamanda, milli dəyərlərə bağlı vətəndaşlar kimi yetişsinlər. Çünki incəsənət həm də bir missiyadır. Bu missiya xalqın ruhunu yaşatmaq, onun tarixini, mədəniyyətini gələcəyə daşımaqdır".

***Ardı səh. 8***

# Heydər Əliyevin dövlətçilik fəlsəfəsi: tarixi dəyərlər əsasında gələcəyə baxış

Əvvəli Səh. 7

Çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mübariz Qurbanlı bildirib ki, Azərbaycan dövlətinin söykəndiyi ideoloji və dövlətçilik prinsiplərinin əsasları Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən edilib: "Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni dövrün çağırışlarına uyğun olaraq yenilənmiş həmin prinsiplər Yeni Azərbaycan Partiyasının proqramında öz əksini tapıb. Bunlar Heydər Əliyev yolu, müstəqillik, azərbaycançılıq, dövlətçilik, qanunun aliliyi, varislik və təkamül, konstruktiv əməkdaşlıq və dialoq, sosial ədalət və insan amili, multikultural cəmiyyət və demokratik ənənələrin inkişafıdır. Bu prinsiplərin hər biri Heydər Əliyevin siyasi irsinin əsasını təşkil edən ideoloji məsələlərdir".

Mübariz Qurbanlı qeyd edib ki, müasir Azərbaycan dövlətinin formalaşması, möhkəmlənməsi və inkişafı Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji-siyasi kursun uğurla həyata keçirilməsinin nəticəsidir: "Odur ki, Heydər Əliyevin zəngin dövlətçilik fəaliyyəti Azərbaycanın bugünü və gələcəyi üçün mükəmməl siyasi irs kimi özünü göstərir. Bu siyasi irs Azərbaycan xalqının müstəqilliyi, güclü dövlətçilik, iqtisadi inkişaf, sosial rifah və xalqımızın milli birliyi kimi fundamental istiqamətləri əhatə edir".

Heydər Əliyevin siyasi irsinin Azərbaycanın inkişaf modelinin əsasını təşkil edən kompleks bir sistem olduğunu deyən YAP İdarə Heyətinin üzvü əlavə edib ki, bu, sabitlik, milli ideologiya, iqtisadi strategiya və institusional quruculuğun vəhdəti üzərində qurulub: "Bu strateji kurs Azərbaycanın uzunmüddətli inkişaf modelinin əsasını təşkil edir. Regionda və dünyada söz sahibi olan güclü və qalib Azərbaycan dövləti Heydər Əliyev irsinin və bu irsi layiqincə davam etdirən, dövrün çağırışlarına uyğun zənginləşdirən Prezident İlham Əliyev siyasi kursunun təntənəsidir" , - deyə M.Qurbanlı vurğulayıb.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova çıxışında bildirib ki, Ulu Öndər Heydər Əliyev dahi şəxsiyyət, uzaqgörən lider, cəsarətli insan idi: "Onun adı yalnız siyasi iradə ilə deyil, həm də dövlətçilik təfəkkürü, milli ruh, strateji zəka və sabaha olan inamla bağlıdır. Ulu Öndərin dövlətçilik fəlsəfəsi təkcə idarəetmə modeli deyil, həm də azərbaycançılıq ideologiyasına söykənən strateji xəttdir. Məhz bu fəlsəfə sayəsində Azərbaycan müstəqilliyini qorudu, dövlətçiliyini möhkəmləndirdi və gələcəyə inamla addımladı".








Hicran Hüseynova qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin tarixi missiyası ölkəmizin müstəqilliyini bərpa etməsi və sonrakı dövrdə özünü daha qabarıq şəkildə göstərib: "Onun üçün hər şeydən əziz xalqı, Vətəni və torpağı idi. Dəfələrlə özü, ailəsi təhlükəyə məruz qalsa da, bu inam və sevgidən bir an belə çəkinmədi. O, 20 Yanvar faciəsindən sonra dərhal sovet hökumətinin Azərbaycan xalqına qarşı törətdiyi cinayəti pislədi, Kommunist Partiyasını tərk etdi və Azərbaycan xalqı onun simasında yenidən öz liderini gördü. Onun Naxçıvan Muxtar Respublikasında fəaliyyəti isə xüsusi ilə diqqətəlayiq idi. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağının məhz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanın Ali Məclisinin iclasında rəsmi dövlət bayrağı kimi tanınması tarixi hadisə idi. Milli dövlətçiliyin mürəkkəb böhranı fonunda 1992-ci ilin noyabr ayında yaradılan Yeni Azərbaycan Partiyası Azərbaycanın gələcək demokratik və suveren inkişafı uğrunda mübarizənin flaqmanına çevrildi".

Ümummilli Liderin ailə dəyərlərinə olan münasibətindən bəhs edən Milli Məclisin komitə sədri Heydər Əliyevin "Ailə dəyərləri xalqımız üçün həmişə doğma olub, çox əziz olub və deyə bilərəm ki, ailə dəyərləri bizim milli dəyərlərimizdir" fikrini xatırladıb: "Fəxrlə demək olar ki, biz Heydər Əliyev irsinin Zəfər mərhələsini yaşayırıq. Prezident, Ali Baş Komandan, partiyamızın Sədri İlham Əliyev və respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Ulu Öndərin siyasi kursunu uğurla davam etdirir. Azərbaycan müstəqil dövlət olaraq daha da güclənib, dünya miqyasında söz sahibi olan ölkəyə çevrilib. Qarabağ Zəfəri, Böyük Qayıdış, regionun lider dövləti kimi irəli sürülən qlobal təşəbbüslər bir daha göstərir ki, Heydər Əliyevin dövlətçilik fəlsəfəsi bu gün yeni mərhələyə qədəm qoyub. Bu, Zəfər mərhələsidir. Ulu Öndər Heydər Əliyev irsi Azərbaycan xalqı üçün dövlətçilik məktəbi, inkişaf modeli və sabitliyin rəmzidir. Onun mirası təkcə tarix deyil, həm də gələcəyə uzanan yol xəritəsidir" ,- deyə Hicran Hüseynova vurğulayıb.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilmiş Ədalət Fərəcova orden təqdim edilib.

Göstərilən diqqətə və fəaliyyətinə verilən yüksək qiymətə görə dövlət başçısına təşəkkürünü bildirən Ədalət Fərəcov Ümummilli Lider Heydər Əliyevin əbədiyaşar ideyalarının, Prezident İlham Əliyevin məqsədyönlü siyasətinin və Yeni Azərbaycan Partiyasının uğurlu fəaliyyətinin Azərbaycana möhtəşəm nailiyyətlər qazandırdığını, ölkəmizin tərəqqi və Zəfər zirvəsinə yüksələrək keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyduğunu vurğulayıb. Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb. Sonra tədbirdə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş konsert proqramı təqdim olunub.

# WUF13-ün təşkili ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin iclası keçirilib

Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasının (WUF13) təşkili ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin mayın 7-də iclası keçirilib. SİA xəbər verir ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev iclası açaraq, WUF13-ün başlanmasına az vaxt qaldığını və mayın 17-dən 22-dək Bakı şəhərinin dünyanın şəhərsalma və dayanıqlı inkişaf gündəliyi üzrə ən mötəbər beynəlxalq platformalarından birinə ev sahibliyi edəcəyini diqqətə çatdırıb.

Təşkilat Komitəsinin sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qlobal miqyaslı tədbirlərin ölkəmizdə keçirilməsinin artıq ənənə halını aldığını bildirib. Samir Nuriyev WUF13-ün Azərbaycanın müasir şəhərsalma baxışının, dayanıqlı inkişaf gündəliyinə verdiyi töhfələrin, həmçinin işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq modelinin beynəlxalq miqyasda təqdimatı baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb. Cari 2026-cı ilin ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan edilməsinin WUF13-ün əhəmiyyətini daha da artırdığı qeyd olunub. Belə ki, Forumun bu çərçivədə il ərzində həyata keçirilən tədbirlərin məntiqi davamı və əsas beynəlxalq mərhələsi kimi çıxış etdiyi diqqətə çatdırılıb. Samir Nuriyev Forumda iştirak üçün bu günədək 177 ölkədən 28 mindən çox şəxsin qeydiyyatdan keçdiyini, onların təxminən yarısının xarici nümayəndələr təşkil etdiyini bildirərək, bunun WUF13-ə beynəlxalq marağın yüksək göstəricisi olduğunu qeyd edib. Təşkilat Komitəsinin sədri Azərbaycanın təşəbbüsü ilə WUF tarixində ilk dəfə keçiriləcək Liderlərin Bəyanatları seqmentinin Forumun siyasi və substantiv baxımdan əsas yeniliklərindən biri olduğunu, bu toplantının şəhərsalma və dayanıqlı məskunlaşma məsələlərini ali səviyyəli qlobal müzakirə predmetinə çevirəcəyini diqqətə çatdırıb. Liderlər seqmentinə, həmçinin Azərbaycanın sədrliyi ilə keçiriləcək WUF13 Nazirlər Görüşünə, Azərbaycan tərəfindən təşkil olunacaq Xüsusi Sessiyaya, Azərbaycan pavilyonunda nəzərdə tutulan tədbirlərə və işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərinin təqdimatına hazırlığın xüsusi diqqətdə saxlanılmasının vacibliyi vurğulanıb.




Daha sonra ümumi hazırlıq prosesinin gedişatı, substantiv, kommunikasiya, protokol, nəqliyyat və təşkilati-logistika sahələrində görülmüş işlər, habelə gündəlikdə duran digər məsələlər üzrə Təşkilat Komitəsinin üzvlərinin məruzələri dinlənilib. İclasın sonunda Təşkilat Komitəsinin sədri Azərbaycan Respublikası Prezidentinin bu mötəbər tədbirin yüksək səviyyədə təşkili və keçirilməsi ilə bağlı qarşıya qoyduğu vəzifələrə uyğun olaraq, WUF13-ün Azərbaycanın beynəlxalq tədbirlərə ev sahibliyi sahəsində formalaşmış müsbət təcrübəsinin növbəti uğurlu nümunəsinə çevriləcəyinə əminliyini bildirib.

Samir Nuriyev WUF13-ə hazırlıq prosesinin yekun mərhələsində aidiyyəti qurumlar tərəfindən müvafiq məsələlərin operativ və uzlaşdırılmış qaydada həll edilməsi, həmçinin bütün istiqamətlər üzrə işlərin daha da intensivləşdirilməsi və başa çatdırılması barədə tapşırıqlar verib.

# Dahi şəxsiyyət, görkəmli dövlət xadimi

Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyevin anadan olmasının növbəti ildönümünü böyük qürur hissi ilə qeyd etməyə hazırlaşır. Xalqımız müasir, müstəqil Azərbaycanın memarı və qurucusu, cahanşümul siyasətçi, görkəmli dövlət xadimi, böyük azərbaycanlı Heydər Əliyevi daim dərin hörmət, ehtram, fəxarətlə xatırlayır. Böyük qürur hissi ilə demək olar ki, Azərbaycanın müasir tarixində qazanılan misilsiz uğurlar Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Ümummilli Liderin Azərbaycana birinci rəhbərliyi dövründə ölkəmiz milli dirçəliş və intibah dövrünü yaşayıb. 1969-cu ildə hakimiyyətə gələn Heydər Əliyev ölkəmizi iqtisadi tənəzüldən inkişaf yoluna doğru apardı və qısa bir müddətdə Azərbaycan böyük uğurlara imza atdı. Dahi Şəxsiyyət Azərbaycanın özünəməxsus iqtisadi modelini yaratdı. Çox haqlı olaraq 1970-1990-cı illər Azərbaycanın iqtisadi və sosil-mədəni yüksəliş dövrü kimi xarakterizə olunur. O dövrdə kənd təsərrüfatında, sənayedə, infrastrukturda və elm-mədəniyyət sahəsində ciddi inkişaf və canlanma müşahidə olunmuş, yeni sənayə müəssisələri və sosial obyektlər istifadəyə verilmişdir. Ötən əsrin 90-cı illərinin əvvəllərində "şər imperiyası" nın dağılması, xalqımızın azadlıq mübarizəsinin nəticəsində yenidən müstəqilliyini bərpa edən Azərbaycana rəhbərlik edənlərin səriştəsizliyi və naşılığı ucbatından ölkəmiz növbəti dəfə parçalanma təhlükəsi, xaos, anarxiya və vətəndaş qarşıdurması ilə üz-üzə qaldı.



**Arif Qaraşov**
**YAP Veteranlar Şurasının üzvü**

Görkəmli alman dövlət xadimi Otto fon Bismark deyirdi: "Şəxsiyyəti olmayan xalqın azadlıq uğrunda mübarizəsi ağlasığmazdır. Xalq öncə şəxsiyyətin ətrafında birləşir, yalnız bundan sonra ideyalar haqqında düşünməyə başlayır".

Bəli, o ağır, məşəqqətli gündələrdə artıq respublika ictimaiyyətinin yekdil rəyi belə idi ki, Azərbaycanı bu ağır vəziyyətdən yalnız Heydər Əliyev dühası xilas edə bilər. Azərbaycanın "olum, ya ölüm" dilemması ilə üz-üzə qaldığı bir vaxtda xalqımız dahi şəxsiyyəti ölkəni idarə etməyə çağırdı. Məhz xalqın belə bir ağır məqamında cahanşümul siyasətçi, qüdrətli dövlət xadimi Heydər Əliyevin öz müqəddəs xilaskar missiyası ilə yenidən hakimiyyətə qayıdışı Azərbaycanda illərlə davam edən anarxiyaya, siyasi hakimiyyətsizliyə, hərbiləşmiş cinayətkar dəstələrin qətl və özbaşınalıqlarına son qoymuş oldu. O ağır günlərdə xalqın səsinə səs verən Ulu Öndər Heydər Əliyevin Naxçıvandan Bakıya gəlişi insanların qəlbində böyük inam yaratdı, dövlətçilik və müstəqillik arzularını yenidən alovlandırdı. Bütün baş verənlər bir daha sübut etdi ki, müstəqilliyi qoruyub saxlamaq və möhkəmləndirmək onu əldə etməkdən daha çətindir.

1993-cü il iyunun 15-də Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycan dərin ictimai-siyasi və iqtisadi böhrandan xilas oldu, respublikanın inkişafının sarsılmaz təməlləri qoyuldu. 15 İyun - Qurtuluş Günü Azərbaycan Milli Məclisinin qərarı ilə 1997-ci ilin 27 iyununda rəsmiləşdirildi. Milli Məclisin həmin tarixi qərarında deyilir: "Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ən ağır günlərdə Heydər Əliyevin öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıtması, əslində, onun müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi. Bu, sözün əsl mənasında, "ömrümün qalan hissəsini də xalqıma qurban verirəm" deyib meydana atılan böyük ürəkli Vətən oğlunun öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi".

1993-cü ilin 3 oktyabr tarixində keçirilən seçkilərdə xalqın müdrik seçimi - böyük etimadı əsasında Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev milli maraqlardan irəli gələn strateji hədəfləri uğurla reallaşdırmaqla Azərbaycanı müstəqil ölkəyə çevirdi. Ulu Öndər Lider Heydər Əliyev Azərbaycanı real təhlükələrdən xilas etməklə yanaşı, gələcək inkişaf strategiyasını müəyyənləşdirdi və bu istiqamətdə ilk mühüm addımlar atdı. Ümummilli Liderin gərgin fəaliyyəti, səyləri nəticəsində ictimai-siyasi sabitlik bərqərar olundu, böyük təhlükə mənbəyi olan qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirildi, sosial-iqtisadi dirçəlişə yol açan islahatlar başlandı. Ordu quruculuğu sahəsində ciddi addımlar atıldı. Gələcəyə, konkret nəticələrə hesablanmış bu siyasət nəticəsində, həmçinin Ermənistan silahlı qüvvələrinin torpaqlarımıza davam edən təcavüzünün qarşısını almaq mümkün oldu. Qısa müddətdə bütün sahələrdə köklü islahatlar həyata keçirildi. 1994-cü ilin 20 sentyabr tarixində imzalanmış "Əsrin müqaviləsi"nin gerçəkləşdirilməsi müstəqüil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Bakı-Tbilisi-Ceyhan neft kəməri istifadəyə verildi, ardınca Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmiryolu və Cənub Qaz Dəhlizi inşa edildi. Bu transmilli layihələr ölkəmizi beynəlxalq arenada mühüm aktora çevirdi. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev müqəddəs ata vəsiyyətini yerinə yetirərək otuz ilə yaxın düşmən tapdağı altında qalmış torpaqlarımızı işğaldan azad etdi, şanlı Azərbaycan Bayrağını Vətənimizin qürur simvolu olan Şuşada dalğalandırdı. Qırx dörd günlük Vətən müharibəsində qazanılmış şanlı Zəfər Azərbaycan tarixinin səhifələrinə qızıl hərflərlə yazıldı. İndi öz ərazi bütövlüyünü və suverenliyini tam təmin etmiş Azərbaycan regionda və dünyada tamamilə yeni geosiyasi reallıqlar yaratmış, onun nüfuzu beynəlxalq miqyasda əhəmiyyətli dərəcədə yüksəlmişdir.

Bu gün ulu öndərin ali ideyalarının gerçəkləşməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Fondunun prezidenti, milli-mənəvi dəyərlərimizin böyük hamisi Mehriban xanım Əliyeva ümummilli liderin milli dövlətçilik düşüncəsinin, azərbaycançılıq məfkurəsinin təbliğ olunması və inkişaf etdirilməsində misilsiz xidmətlər göstərib Milli-mənəvi dəyərlərin yaşadılması, onun təbliğ olunmasında genişmiqyaslı fəaliyyəti ilə seçilən Heydər Əliyev Fondu da ötən illər ərzində bu sahədə böyük uğurlara imza atıb.

Ulu Öndər Heydər Əliyevin əbədiyaşar ideyaları bu gün də Azərbaycanın inkişaf, tərəqqi yolunu işıqlandırır. Azərbaycan xalqı və dövləti var olduğu müddətdə Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq, daim hörmətlə anılacaq.

# Avropayönlü inqilab, yoxsa "kiçik bacı" statusu?

***Aİ liderləri və onların tərəfdaşlarının iştirakı ilə üç günlük zirvə görüşləri İrəvanda başa çatdı. Bu müddət ərzində dövlət başçıları demokratiya, iqtisadi və təhlükəsizlik məsələlərini, eləcə də Cənubi Qafqazda sülh olmadan mümkün olmayan yeni nəqliyyat əlaqələrinin inkişafını müzakirə etdilər. Üç gün ərzində Ermənistanın Baş naziri Nikol Paşinyan qonaqlarının təriflərindən feyziyyab olmaq həddinə gəldi. Yeganə istisna Ermənistanın daha təmkinli davranan ən yaxın qonşuları idi.***



Avropa Şurasının prezidenti Ant?nio Kostanın qeyd etdiyi kimi, Avropa liderlərinin Ermənistana axını ölkənin son bir neçə ildə qazandığı nailiyyətlər sayəsində mümkün olub. Avropa Komissiyasının prezidenti Ursula fon der Leyenin sözlərinə görə, İrəvan Cənubi Qafqazda yeni ticarət yollarının bir hissəsinə çevrilə bilər. Onun sözlərinə görə, Avropadan Orta Asiyaya və Xəzər dənizinə ən qısa yol Ermənistandan keçir və bu yol vaxtilə Qarabağ münaqişəsi səbəbindən bağlı qalmışdı. "Siz indi bunu cəsarətli sülh seçiminizlə və Avropa şəbəkələrinə daha geniş inteqrasiya yolu ilə dəyişdirirsiniz. Bunun sayəsində Ermənistan yeni ticarət yolları üçün regional həlqəyə çevrilə bilər... Bizi təkcə ortaq tarix və mədəniyyət deyil, həm də qarşımızda açılan imkanlar birləşdirir", - deyə o, Ermənistan-AB sammiti zamanı Paşinyana xitabən bildirib.

Fransa prezidenti Emmanuel Makronun Ermənistana səfərinin ən kulminasiya nöqtəsi iki ölkə arasında strateji tərəfdaşlıq müqaviləsinin imzalanması oldu. "Bu müqavilə... ölkələrimiz arasında yeni iqtisadi səhifələr açacaq... Amma sizə deyim ki, xəyallarımızdakı Ermənistandan "əsl Ermənistan" adlandırdığınız şey bizim üçün nə qədər ayrılmazdır... Siz Avropada dinc və çiçəklənən bir Ermənistan seçmisiniz. Və bütün incəlikləri ilə, ortaq tariximizi özündə daşıyan, sevdiyimiz və tam qəbul etdiyimiz bu Ermənistandır. Heç vaxt unutmayın ki, ölkənizi və xalqınızı sevən, ona həmişə kiçik bacı kimi baxan, bizə çox şey verən və həmişə onunla birlikdə olacağıq insanlar var. Biz bir-birimizə əl uzadırıq. Bu, sizin seçdiyiniz Avropa gələcəyidir", - deyə Makron bildirib.

Bundan əlavə, Makron Azərbaycan Prezidenti İlham Əliyevlə qondarma "Dağlıq Qarabağ Respublikası"nın separatçı liderləri də daxil olmaqla, erməni əsirlərinin azad edilməsi barədə danışacağına söz verib. Eyni zamanda, Fransa prezidenti etiraf edib ki, Azərbaycanla münaqişədə Ermənistanın qeyd-şərtsiz dəstəyinə görə bir məqamda sülh danışıqlarından "praktik olaraq kənarlaşdırılıb".

Amma hər şey o qədər də rahat deyildi. İlham Əliyev video bağlantı vasitəsilə fürsətdən istifadə edərək İrəvana səfər edən avropalılara Qarabağda erməni separatizminə necə son qoyduğunu və "müharibə cinayətkarlarını" ədalət mühakiməsinə necə təslim etdiyini danışdı. Bu arada, Azərbaycan mediası onun bəyanatını İrəvanın Azərbaycan adı olan "İrəvan"da sammit iştirakçılarına müraciət kimi təqdim etdi. Və Türkiyənin Ermənistanla münasibətlərin normallaşdırılması üzrə xüsusi elçisi Serdar Kılıç Ermənistana səfərinin diplomatik münasibətlərin qurulması prosesinin bir hissəsi hesab edilməməsinə çağırdı. "Biz Türkiyə-Ermənistan münasibətlərini normallaşdırmırıq. Bu, normallaşma prosesi deyil, etimadın yaradılması prosesidir. Biz iki ölkə arasında münasibətlərin tam normallaşmasına aparacaq hərtərəfli addımlar ata bilmək üçün etimad yaratmağa çalışırıq", - deyə diplomat vurğulayıb.

Bu fonda Xarici Kəşfiyyat Xidmətinin rəhbəri Kristin Qriqoryan bildirib ki, hakim Vətəndaş Müqavilə Partiyası parlament seçkilərində uduzsa, Ermənistan-Azərbaycan münaqişəsi yenidən başlaya bilər, çünki müxalifət yaranmış sülhün təməllərini şübhə altına alır. Bir tərəfdən Brüsselin bəyan etdiyi Avropa dəyərləri var. Digər tərəfdən isə, bu dəyərlərin enerji, tranzit və praqmatizm qarşısında yerini itirdiyi açıq-aşkar siyasi təcrübə mövcuddur. Diplomatik uğur kimi təqdim edilən Avropa Siyasi Birliyi sammiti əslində Ermənistanın siyasi agentliyinin ağrılı bir sınağına çevrilib. Ermənistan hökuməti gözlənilən şəkildə bu sınağı keçə bilməyib. Avropa Şurasının prezidenti Ant?nio Kostanın açıqlamasında da bu uğursuz faktı vurğulayıb. O, Azərbaycan Prezidenti İlham Əliyevin İrəvan sammitində, Bakıdan onlayn əlaqə vasitəsilə olsa da, iştirakının Bakı ilə İrəvan arasında "yeni atmosfer" olduğunu bildirib.

Əslində, Kosta Bakının xəttini qanuniləşdirdi. Bundan bir gün əvvəl Azərbaycan Prezidentinin özü tərəfindən Avropa Parlamentinə və AŞPA-ya qarşı sərt və haqlı tənqidlər səsləndirilmişdi. Bu tənqidin səbəbi hamıya məlumdur: Avropa qurumları Azərbaycana "insan haqları", "Artsax xalqının taleyi" və "mədəni irsin qorunması" kimi iftiralar, qərəzlər yağdıraraq ədalətsizlik etmişdi. Və burada əsas ziddiyyət ortaya çıxır. Bir tərəfdən Brüsselin bəyan etdiyi Avropa dəyərləri var, digər tərəfdə isə, bu dəyərlərə qarşı ikili standartlar. Avropa Parlamentinin prezidenti Roberta Metsola açıq-aydın bir şeyi xatırlatmaq məcburiyyətində qalıb ki, Avropa Parlamenti əksəriyyətin iradəsini əks etdirən demokratik bir qurumdur və fərdi liderləri razı salmaq üçün öz prinsiplərini əyməyəcək. Hansı prinsiplər? 30 illik işğal dövründə, Ermənistan Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağda törətdiklərinə görə Avropanın heç olmasa qınağı ilə üzləşmişdimi? Əlbəttə yox. Niyə? Cavab da çox sadədir, çünki, Avropa ədalətin yox, öz maraqlarının yanındadır. 2028-ci ildə oxşar sammitin Azərbaycanda keçirilməsi perspektivi həmin ermənilərin narahatlığı daha da artırır. Nikol Paşinyanın bu prosesdə iştirak etmək istəyi bir çoxları tərəfindən diplomatik çeviklik kimi deyil, güzəşt xəttinin davamı kimi qəbul edilir. Bu, həmçinin qarşıdan gələn parlament seçkilərindəki "qələbəsinə" olan inam kimi qəbul edilir. O, hazırda mahiyyət etibarilə bunu rəsmiləşdirir.

Bu, sual doğurur: Ermənistan bir dövlət olaraq bu AŞ sammitindən nə qazandı? Cavab, etiraf etmək nə qədər acı olsa da, göz qabağındadır: heç nə. Ermənistan heç bir əlavə təhlükəsizlik zəmanəti üçün heç bir aydın mexanizm, hətta çəkdiyi itkilərin miqyasına uyğun simvolik siyasi dəstək almadı. Lakin sammit, siyasətinin nəticəsindən asılı olmayaraq, Avropanın mövcud Ermənistan rəhbərliyinə dəstəyinin nümayişi oldu. Bu, Türkiyə üçün bir platforma oldu və o, Ermənistan-Türkiyə münasibətlərində "yeni dövr" haqqında danışmaq üçün İrəvana yüksək vəzifəli nümayəndə göndərdi. Bu, Azərbaycan üçün bir platforma oldu və ona gündəliyini möhkəmləndirməyə imkan verdi. Bu, həm də Rusiya üçün geosiyasi siqnal rolunu oynadı və Ermənistana qarşı daha sərt açıqlamalara səbəb oldu. Ukrayna Prezidenti Vladimir Zelenskinin sammitdə iştirakı və onun Rusiya əleyhinə mesajları Rusiya ilə onsuz da gərgin olan münasibətlərimizdə gərginliyi daha da artırdı. Kim nə deyirsə desin, Ermənistan subyekt deyil, xarici qarşıdurmaları nümayiş etdirmək üçün bir platforma olduğunu sübut etdi. Bu arada, regiondakı maraqlarına da toxunulan İran hələlik susmağı seçdi. Lakin bu sükut razılaşma əlaməti deyil, reaksiyadan əvvəlki fasilədir.

**V.VƏLİLİ**







## YAP-ın təşəbbüsü ilə Tərtər rayonunda sosial layihə icra edilib

Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü münasibətilə Tərtər rayonunda daha bir sosial layihə icra edilib. Yeni Azərbaycan Partiyasının (YAP) təşəbbüsü ilə Tərtər rayonunun Ələsgərli kəndində 200-dən çox ailənin məişət şəraitini yaxşılaşdıran texniki su xətti istifadəyə verilib. Layihə çərçivəsində, həmçinin kənd mərkəzində yeni park salınıb, ərazidə abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Açılış mərasimində Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, Milli Məclisin deputatı Anar Məmmədov, YAP Mərkəzi Aparatı rəhbərinin müavini Ramilə Bədəlova, Mərkəzi Aparatın İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərli, YAP Tərtər rayon təşkilatının sədri Eldar Əsədov, partiya fəalları, şəhid ailələri, qazilər və rayon ziyalıları iştirak ediblər. Mərasimdə çıxış edən Milli Məclisin deputatı Anar Məmmədov Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı misilsiz xidmətlərindən bəhs edərək bildirib ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kursun nəticəsində əldə edilən nailiyyətlər, ən əsası, şanlı Zəfərimiz dahi şəxsiyyətin ideyalarının təntənəsidir. Millət vəkili Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə həyata keçirilən sosial layihələrin önəmini diqqətə çatdırıb. Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov çıxışında dövlət başçısının bütün regionlar kimi, Tərtərin də sosial-iqtisadi inkişafını xüsusi diqqət mərkəzində saxladığını deyib. O vurğulayıb ki, Ələsgərli kəndində yeni su xəttinin çəkilişi və parkın istifadəyə verilməsi regionlarda aparılan ardıcıl quruculuq işlərinin bariz nümunəsidir.

Daha sonra çıxış edən YAP Mərkəzi Aparatı rəhbərinin müavini Ramilə Bədəlova qeyd edib ki, bu layihə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi sosial inkişaf kursuna partiyanın növbəti töhfəsidir: "Ələsgərli kəndində 200 ailəni su ilə təmin etmək, ərazidə müasir istirahət guşəsi yaratmaq partiya fəallarının və seçicilərin vahid amal uğrunda birləşməsinin nəticəsidir. Bu, partiyamızın xalqla birliyinin, insanların gündəlik qayğılarına olan həssaslığının bariz nümunəsidir".

YAP Tərtər rayon təşkilatının sədri Eldar Əsədov isə qeyd edib ki, yeni su xəttinin çəkilişi insanların rahatlığı və rifahına xidmət edir. O, dövlət başçısının "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır" fikrini xatırladaraq YAP-ın mühüm sosial təşəbbüslər həyata keçirdiyini qeyd edib.

Mərasimdə çıxış edən kənd sakinləri və şəhid ailələri onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər. Sonra şəhid Ruslan Şahbazovun ailəsi ziyarət edilib. Görüş zamanı şəhid ailəsinin qayğıları ilə maraqlanılıb, Vətən uğrunda canını fəda etmiş qəhrəmanımızın döyüş yoluna nəzər salınıb.

# Heydər Əliyev Azərbaycan dövlətinin xilaskarı və qurucusudur

***Tariximizin 1960-cı illərin sonlarından başlanan və XXI əsrə adlayan otuz dörd illik bir dövrü Ulu Öndər Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlıdır. Ümummilli Lider 1969-cu ilin 14 iyul tarixində birinci dəfə respublikaya rəhbərlik etməyə başlayanda Azərbaycan sosial-iqtisadi həyatın bütün sahələrində çox geridə qalırdı, ona sovet ittifaqının ikinci dərəcəli əyalətlərindən biri kimi baxılırdı.***



Belə bir vaxtda Heydər Əliyevin hakimiyyətə gəlməsi Azərbaycan tarixində dönüşün başlanğıcı oldu. Respublikanın dinamik inkişafına dair kompleks proqramlar işlənib hazırlandı. Ulu Öndərin təşəbbüsü ilə ittifaq hökuməti ölkə iqtisadiyyatının hərtərəfli və intensiv inkşafına yönəldilmiş beş xüsusi qərar qəbul etmişdi. Bu görünməmiş bir iş idi və xalqımızın mənafeləri baxımından tarixi əhəmiyyət kəsb edirdi. Heydər Əliyevin yüksək təşkilatçılıq bacarığı, yorulmaz fəaliyyəti sayəsində ölkə həyatının bütün sahələrində vüsətli dəyişikliklər baş vermiş, Azərbaycan Rusiya Federasiyasından sonra ittifaq büdcəsindən dotasiya almadan yaşayan iki respublikadan birinə çevirilmişdi. Həmin dövrdə Azərbaycanda güclü iqtisadi potensial yaranmışdı və o bu gün müstəqil ölkəmizə xidmət edir.



***Nazim İsmayılov***
***Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü***

Həyata keçirilən tədbirlər nəticəsində 1969-1982-ci illərdə sənaye məhsulları istehsalının həcmi 2.7 dəfə artmış, həmin dövrdə ölkə iqtisadiyyatının inkşafında mühüm əhəmiyyəti olan 200-dən çox yeni sənaye müəssisələri tikilib istifadəyə verilmişdir.

1982-ci ildə kənd təsərrüfatının ümumi məhsulu 1969-cu illə müqayisədə 2.5 dəfə artmış, o cümlədən taxıl istehsalının həcmi 573.9 min tondan 1211.3 min tona, pambıq tədarükü 299.4 min tondan 1015.3 min tona, üzüm istehsalı 272.0 min tondan 1815.6 min tona yüksəlmişdir. Dənli bitkilərin məhsuldarlığı 1970-cı ildə hər hektardan 11.6 sentnerdən 1980-cı ildə 23.2 sentnerə çatmışdır. 1969-1982-ci illərdə iqtisadiyyatın inkşafına 7.2 milyard manat vəsait xərclənmişdir ki, bu da 1968-ci ildəki kapital qoyuluşundan 6.7 dəfə çoxdur. Həmin illərdə respublika əhalisinin mənzil şəraiti əsaslı dərəcədə yaxşılaşaraq ümumi sahəsi 19.4 milyon kv.metr mənzillər tikilərək vətəndaşların istifadəsinə verilmişdir. Bu dövrdə 483.4 min şagird yerlik ümumtəhsil məktəbləri, 68.1 min yerlik məktəbəqədər uşaq müəssisələri, 13.5 min çarpayılıq xəstəxana inşa edilmişdir.

Hazırda Bakıya, Azərbaycanın şəhər və rayonlarına gözəllik, yaraşıq verən yüzlərlə yaşayış və ictimai binalar, məktəblər, mədəniyyət sarayları, fabriklər, zavodlar, iri istehsal kompleksləri, su anbarları, dərya-çalar, yaşıllıq zonaları, neçə-neçə yollar, körpülər Heydər Əliyev zəkasının, onun yorulmaz fəaliyyətinin, bu böyük şəxsiyyətin bütün varlığına hopmuş vətən sevgisinin nəticəsidir.

Ulu Öndərimiz qeyd edirdi: "Yaratdığım hər bir şey mənim üçün əzizdir. Zavod da, fabrik də, elektrik stansiyaları da, yol da, körpü də, ev də, bina da, saray da - hər bir şey. Amma mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim vətənimdir, mənim torpağımdır".

Heydər Əliyevin həmin dövrdə təməli qoyulmuş Azərbaycançılıq ideologiyası ilk növbədə gənclərə istiqamətlənmişdi. 1970-ci illərdə və 1980-cı illərin əvvəllərində hər il yüzlərlə Azərbaycanlı tələbə-gənclər SSRİ-nin müxtəlif nüfuzlu ali məktəblərinə göndərilirdi. Bununla iki məqsədə nail olunurdu, respublikanın elmi və kadr potensialı yüksəlir, istedadlı gənclərimiz xalqımızın mədəniyyətini, milli-əxlaqi dəyərlərini təbliğ etməklə ölkəmiz haqqında ən layiqli rəy və təsəvvür formalaşdırırdılar. Həmin gənclərin bir hissəsi təhsil aldıqları yerdə qalıb işləməklə hazırda keçmiş sovet məkanındakı Azərbaycan diasporunun əsasını təşkil edir. Respublikaya rəhbərliyinin birinci dövründə Ulu Öndərin böyük xidmətlərindən biri Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış məktəbin açılması olmuşdur. Onun yaratdığı və fəxr etdiyi təhsil ocağında hazırda peşəkar milli hərbi kadrlar yetişdirilir.

Heydər Əliyev xalqın milli dirçəlişi məsələsində Azərbaycan dilinə böyük əhəmiyyət verirdi. Məhz bu böyük şəxsiyyətin iradəsinin nəticəsi idi ki, respublikanın 1978-ci ildə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit edilmişdi.

Ümummilli Lider Heydər Əliyevin dəmir iradəsinin parlaq sübutu onun fəaliyyətinin Moskva illəridir. 1982-1987-ci illəri əhatə edən bu dövrdə SSRİ rəhbərliyində siyasi büronun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək post tutan Heydər Əliyev Kreml rejiminə sübut etdi ki, heç bir qüvvə onun zəngin, tükənməz və hərtərəfli dövlət idarəçiliyi istedadının qarşısını almağa qadir deyildir. Tənəzzülə başlamış nəhəng imperiyanın ən ağır sahələrinin idarə edilməsində böyük uğurlara nail olan Heydər Əliyev az vaxt içərisində bütün SSRİ-də böyük nüfuz qazandı. Həmin dövrdə O, siyasi büroda bütün Sovet dövlətini idarə etməyə və onun düşdüyü çətin vəziyyətdən çıxarmağa qadir olan yeganə dövlət xadimi idi. Səriştəsiz və bacarıqsız kreml rəhbərləri, xüsusilə M.Qorbaçov Heydər Əliyevi özlərinə ciddi rəqib hesab edirdilər. O, bunlara baxmayaraq rəhbərlikdə olarkən doğma vətənini həmişə diqqət mərkəzində saxlayır, onun inkşafına hər cür qayğı göstərirdi. Xalqımızın böyük oğlu o zaman, həm də Qarabağı Azərbaycandan qoparıb almağa çalışan erməni millətçilərinin qarşısında qüdrətli manеə, keçilməz sədd idi. Elə buna görə də, erməni mafiyasının əlində itaətkar alət olan M.Qorbaçov nəhayət öz fitnəkar niyyətinə nail ola bildi. Xalqımızın dahi oğlu Heydər Əliyev SSRİ-nin rəhbərliyindən uzaqlaşdırıldı. Bu əslində bütün sovet hakimiyyəti illəri ərzində xalqımıza vurulan ən ağır zərbə idi. Bundan dərhal sonra M.Qorbaçov tərəfindən himayə olunan erməni millətçiləri Qarabağı Azərbaycandan qoparıb almaq üçün fəal mübarizəyə başladılar. Bundan sonra Azərbaycanın ağır günləri başlandı. Moskvaya satılmış xəyanətkar rəhbərlər və onları əvəz edən, heç bir idarəçilik bacarığı olmayan "AXCP-Müsavat" rejimi ölkəni dağılıb məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdular. Qarmaqarışıqdan istifadə edən SSRİ rəhbərləri ölkədə 20 Yanvar qırğınını törətdilər. Yüzlərlə vətəndaşlarımız, o cümlədən uşaqlar, qadınlar, qocalar, alimlər, tibb işçiləri, müxtəlif təbəqədən olan dinc insanlar şəhid oldular, itgin düşdülər, əlil oldular. Belə bir ağır şəraitdə - 1990-cı il yanvarın 21-də Heydər Əliyev özünün və ailə üzvlərinin həyatını ciddi təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlib doğma xalqına başsağlığı verərək Bakıda bu qanlı faciəni törədənlərin cəzalandırılmasını tələb etdi.

Ulu Öndər xalqının ağır günündə Kremlin təqiblərindən yaxa qurtarıb 1990-cı ilin iyul ayının 20-də Vətənə döndü. Lakin vaxtilə çörək verdiyi, vəzifələrə təyin etdiyi nankorlar onu qurub yaratdığı Bakıda qalmağa imkan vermədilər. 22 iyul 1990-cı ildə O, doğma Naxçıvana döndü. Çox böyük coşqu ilə qarşılanan Ümummilli Lider ömrünün üç ilini doğulub boya-başa çatdığı Naxçıvanda yaşadı, Muxtar Respublikanın Ali Sovetinin sədri işlədi. O, həmin vəzifədə çalışarkən Azərbaycanın müstəqilliyi yolunda cəsarətli addımlar atdı.

Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olundu. Muxtar respublikanın adından "Sovet sosialist" sözləri çıxarıldı.

1990-cı ilin 19-20 yanvar faciəsinə siyasi qiymət verilməsi, Naxçıvan əhalisinin SSRİ-nin saxlanılması barədə referendumda iştirakdan imtina etməsi, Muxtar Respublika ərazisində Mərkəzi Komitənin yerli orqanlarının fəaliyyətinin dayandırılması, 31 dekabr gününün Dünya Azərbaycanlıların həmrəylik günü kimi elan olunması barədə qərarlar qəbul edildi. 91 nəfər respublika ziyalıları adından Heydər Əliyevə ünvanlanmış müraciəti qəbul edərək 21 noyabr 1992-ci il tarixində Naxçıvanda Yeni Azərbaycan Partiyası təsis olundu və Ulu Öndər partiyanın sədri seçildi.

Azərbaycandan ayrı düşmüş Naxçıvanda, özü də çox çətin hərbi-iqtisadi blokada vəziyyətində vətən torpağının qorunub saxlanılması - bax, bunlardır Dahi şəxsiyyətin Naxçıvanda mühasirə şəraitində keçən ömrünün, göstərdiyi fəaliyyətin qısa yekunu!

Məlum olduğu kimi, 1993-cü ilin may-iyun aylarında o vaxtkı "AXCP-Müsavat" hakimiyyətinin yarıtmaz fəaliyyəti nəticəsində ölkədə böhran vəziyyət yaranmışdır. Ölkədə xaos, özbaşınalıq, itaətsizlik hökm sürürdü. Bir tərəfdən daxili çəkişmələr, digər tərəfdən torpaqlarımızın işğalı insanlarda sabaha ümidi itirmişdir. 1993-cü ilin 04 iyununda Gəncədə baş vermiş hadisələr Surət Hüseynov qiyamı ilə nəticələnmiş, Şimaldan Sadvalçılar, Cənubdan Əlikram Hümbətov faktoru ölkədə vətəndaş müharibəsinə gətirib çıxarmış, Azərbaycan bölünmək təhlükəsi ilə üz-üzə qalmışdır.

Belə bir şəraitdə xalq təkidlə Heydər Əliyevin Azərbaycana rəhbər qayıtmasını israrla tələb edirdi. Vəziyyət o yerə çatmışdır ki, hakimiyyətdə olanlar da Ulu Öndərə yalvarırdılar ki, gəlsin bunların canlarını qurtarsın.

Təbii ki, Ümummilli Lider onların yox, özündən də çox istədiyi xalqının tələbi ilə 1993-cü ilin 09 iyununda Bakıya gəldi, 15 iyun 1993-cü ildə Ali Sovetin sədri seçildi. Milli Qurtuluş günü kimi Azərbaycan tarixinə düşmüş həmin vaxtdan Heydər Əliyev dövrü özünün yeni, daha şərəfli, daha əzəmətli mərhələsinə qədəm qoymuşdur. Ulu Öndər fəaliyyətə başladıqdan sonra qısa müddətdə üzləşdiyi çətinliklərə, maneələrə, dövlət çevrilişi cəhdlərinə cəsarətlə sinə gərərək mübarizlik, əyilməz iradə, müdriklik və siyasi uzaqgörənlik kimi fövqal keyfiyyətlərdən istifadə edərək, xalqımızı vətəndaş qarşıdurmasından, parçalanmaqdan qorumuş, müasir tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil olmuşdur. Ölkədə siyasi, hərbi sabitliyi təmin etdikdən sonra Heydər Əliyev postsovet məkanında birinci olaraq Azərbaycanda effektli aqrar islahatlar aparıldı, kənd təsərrüfatı tənəzzüldən qurtularaq inkşaf mərhələsinə qədəm qoydu. Böhran həddində olan sənayedə uğurlu islahatlar nəticəsində tərəqqiyə doğru inamlı dönüş yarandı. Sahibkarlığın inkşafı üçün münbit şərait yaradıldı. Hamının möcüzə kimi baxdığı 20 sentyabr 1994-cü il tarixdə imzalanmış "Əsrin müqaviləsi"nin naliyyətləri əfsanə sayılan "Bakı-Tiblisi-Ceyhan" əsas ixrac neft boru kəmərinin istifadəyə verilməsi ilə əlamətdar oldu. Heydər Əliyev 1993-cü ilədək ayrı-ayrı mafioz qrupların, siyasi təşkilatların nəzarəti altında olan nizamsız silahlı dəstələrdən təşkil edilən ordu yenidən quruldu. Ordunun maddi-texniki bazası möhkəmləndirildi, təkmilləşdirildi, hərbi hazırlıq səviyyəsi yüksəldildi və müasirləşdirildi.12 oktyabr 1995-ci ildə referendum yolu ilə müstəqil Azərbaycanın Konstitusiyası qəbul edildi. Ulu Öndər fəaliyyəti dövründə Azərbaycanın hərtərəfli inkşafının uzunömürlüyünü təmin edən təkmil irs, siyasi məktəb yaratmışdır. Bu irsin ən görkəmli nümayəndəsi və təmsilçisi cənab İlham Əliyevdir.

2003-cü ildən Ümummilli Liderin siyasətini uğurla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında ölkəmizin müasir inkişaf dövrü başlamış, onu bütün sahələrdə dünyanın aparıcı ölkələr sırasına çıxarmışdır.

Ən əsası Ulu Öndərin müqəddəs arzusunu yerinə yetirərək işğalda olan torpaqlarımızı qəhrəman ordumuzun gücü ilə azad edərək ərazi bütövlüyümüzü tam bərpa etmişdir.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ordumuzun Ali Baş Komandanı cənab İlham Əliyev 30 il işğal altında olan tarixi dədə-baba torpaqlarımızda üç rəngli bayrağımızı ucaltmış və Fəxri Xiyabana gedərək Ulu Öndərə hesabat vermişdir.Hazırda azad olunmuş torpaqlarımızda abadlıq-quruculuq işləri sürətlə davam etdirilir. Bərpa olunmuş ərazilərdə həyat qaynayır, 50 mindən çox vətəndaşlarımız orada yaşayır, işləyirlər. Bu gün hər birimiz dünyanın istənilən yerində başı uca, qürurla gəzirik və Azərbaycanlı olmağımızla fəxr edirik. Bu qüruru bizlərə məhz Ulu Öndər Heydər Əliyev və onun alternativsiz davamçısı, Qalib Xalqın Qalib lideri İlham Əliyev yaşatmışdır!

# Ulu Öndər Heydər Əliyev və milli maraqlara əsaslanan inkişaf yolu

***Ulu Öndər Heydər Əliyev milli dövlətçilik tarixində müstəsna rol oynamış dahi siyasi xadimdir. Ümummilli Liderin uzaqgörən siyasəti, güclü idarəçilik bacarığı və milli maraqlara əsaslanan fəaliyyəti nəticəsində dövlətçiliyin möhkəm təməlləri formalaşdırılmış, sabitlik və tərəqqi üçün etibarlı zəmin yaradılmışdır. Heydər Əliyevin həyatı və fəaliyyəti dövlət quruculuğu, siyasi sabitlik, iqtisadi inkişaf və milli həmrəylik anlayışları ilə bilavasitə bağlıdır.***



Ümummilli Lider Heydər Əliyev 1969-cu ildə respublika rəhbərliyinə gəldikdən sonra qısa müddətdə idarəetmədə köklü dəyişikliklərə nail oldu və sistemli islahatlar həyata keçirdi. Onun rəhbərliyi dövründə sənaye sahəsi sürətlə inkişaf etdi, yeni istehsal müəssisələri yaradıldı, mövcud zavod və fabriklər modernləşdirildi. Bu siyasət nəticəsində iqtisadiyyatın müxtəlif sahələri arasında tarazlıq təmin olundu, sənayeləşmə prosesi gücləndirildi və respublika ittifaq daxilində qabaqcıl mövqelərdən birini tutmağa başladı. Aqrar sahədə də mühüm yeniliklər tətbiq olundu, kənd təsərrüfatının məhsuldarlığı artırıldı və ərzaq təhlükəsizliyinin təmin olunmasına yönəlmiş addımlar atıldı.



*Meydanəli Yolçiyev*
*YAP Daşkəsən rayon təşkilatının sədri*

Eyni zamanda, Heydər Əliyevin həyata keçirdiyi kadr siyasəti strateji əhəmiyyət daşıyırdı. Ulu Öndər milli kadrların hazırlanmasını prioritet istiqamət kimi müəyyənləşdirərək gənclərin yüksək səviyyəli təhsil almasına geniş imkanlar yaratdı. Minlərlə gənc ittifaqın nüfuzlu ali təhsil müəssisələrinə göndərildi və onlar müxtəlif sahələr üzrə peşəkar mütəxəssis kimi yetişərək sonrakı dövrlərdə dövlət idarəçiliyində və iqtisadiyyatın inkişafında mühüm rol oynadılar. Bu yanaşma milli potensialın gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edirdi.

Sosial sahədə aparılan genişmiqyaslı işlər də təqdirəlayiq idi. Şəhər və rayonlarda yeni yaşayış massivləri salındı, yollar, kommunikasiya xətləri və digər infrastruktur obyektləri tikildi. Əhalinin sosial rifahının yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində həyat səviyyəsi əhəmiyyətli dərəcədə yaxşılaşdı. Mədəniyyət, elm və təhsil sahələrinə göstərilən xüsusi diqqət isə milli-mənəvi dəyərlərin qorunmasına, inkişafına və gələcək nəsillərə ötürülməsinə mühüm töhfə verdi.

1990-cı illərin əvvəllərində ölkəmizdə yaranmış mürəkkəb ictimai-siyasi vəziyyət dövlətçiliyi ciddi təhlükə qarşısında qoymuşdu və cəmiyyət dərin böhranla üz-üzə idi. Belə bir şəraitdə xalqın təkidli tələbi ilə 1993-cü ilin iyun ayında Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı tarixi zərurətə çevrildi. Onun siyasi təcrübəsi və qətiyyəti sayəsində ölkədə anarxiya və qarşıdurma meyllərinin qarşısı qısa müddətdə alındı, ictimai-siyasi sabitlik bərpa edildi və idarəetmədə ardıcıllıq təmin olundu.

Ulu Öndər Heydər Əliyev dövlət qurumlarının formalaşdırılması istiqamətində sistemli addımlar atdı. Hüquqi dövlət quruculuğu prosesi sürətləndirildi, qanunvericilik bazası təkmilləşdirildi və demokratik idarəetmə prinsipləri tətbiq olunmağa başlandı. Bu dövrdə qəbul edilən mühüm qərarlar və həyata keçirilən islahatlar dövlətin gələcək inkişaf strategiyasının əsasını təşkil etdi. Sabitliyin təmin olunması ilə paralel olaraq iqtisadi dirçəliş üçün də əsaslı tədbirlər görüldü. Daxili resursların səfərbər edilməsi, xarici investisiyaların cəlb olunması və iqtisadi siyasətin düzgün istiqamətləndirilməsi nəticəsində tənəzzülün qarşısı alındı və inkişaf üçün yeni imkanlar yarandı. Bu mərhələ sonrakı uğurların başlanğıc nöqtəsi kimi tarixə düşdü.

1994-cü il sentyabrın 20-də imzalanan və "Əsrin müqaviləsi" kimi tarixə düşən neft sazişi iqtisadi inkişafın əsas komponentlərindən birinə çevrildi. Həmin saziş beynəlxalq enerji şirkətlərinin iştirakı ilə həyata keçirilərək zəngin karbohidrogen ehtiyatlarının səmərəli şəkildə işlənməsinə imkan yaratdı. Beləliklə, enerji sektorunda yeni mərhələ başlandı və qlobal enerji bazarına inteqrasiya sürətləndi. Sazişin icrası nəticəsində böyük həcmdə xarici sərmayələr cəlb olundu, müasir texnologiyalar tətbiq edildi və yeni ixrac infrastrukturu yaradıldı. Boru kəmərlərinin inşası, enerji layihələrinin genişləndirilməsi və regional əməkdaşlığın inkişafı dövlətin iqtisadi gücünü əhəmiyyətli dərəcədə artırdı. Bu layihələr həm də regionda enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynadı. Enerji strategiyası yalnız iqtisadi deyil, həm də siyasi və geosiyasi baxımdan mühüm nəticələr verdi. Dövlətimiz beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirdi və qlobal layihələrin fəal aktoruna çevrildi. Bu isə uzunmüddətli inkişaf üçün geniş perspektivlər yaratdı.

Ulu Öndər Heydər Əliyev tərəfindən həyata keçirilən sosial-iqtisadi siyasət genişmiqyaslı, məqsədyönlü və çoxşaxəli yanaşma ilə səciyyələnərək dövlətin dayanıqlı inkişafının əsasını formalaşdırdı. Bu siyasətin mərkəzində bazar iqtisadiyyatına ardıcıl və mərhələli keçidin təmin olunması dayanırdı. Keçid dövrünün mürəkkəbliyinə baxmayaraq, iqtisadi sabitliyin qorunması və makroiqtisadi tarazlığın təmin edilməsi istiqamətində mühüm addımlar atıldı. Sahibkarlığın inkişafı üçün əlverişli mühit yaradıldı, qanunvericilik bazası təkmilləşdirildi, mülkiyyət münasibətləri yenidən formalaşdırıldı və investisiya qoyuluşlarının təşviqi üçün zəruri mexanizmlər tətbiq olundu. Özəlləşdirmə proqramlarının həyata keçirilməsi iqtisadiyyatın müxtəlif sahələrində struktur dəyişikliklərinə səbəb oldu, dövlət sektorunun yükü azaldıldı və rəqabət mühitinin formalaşmasına geniş imkanlar açıldı. Bu tədbirlər nəticəsində iqtisadi fəallıq artdı, özəl sektorun rolu gücləndi və iqtisadiyyatın liberallaşdırılması istiqamətində mühüm nailiyyətlər əldə olundu.

Sosial-iqtisadi siyasətin mühüm istiqamətlərindən biri regionların tarazlı inkişafının təmin edilməsi idi. Bu məqsədlə ölkənin müxtəlif bölgələrində genişmiqyaslı infrastruktur layihələri həyata keçirildi, yollar, enerji və kommunikasiya xətləri yeniləndi, yeni sosial obyektlər inşa olundu. Regionlarda iqtisadi fəallığın artırılması, yeni iş yerlərinin yaradılması və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi prioritet vəzifələrdən biri kimi müəyyənləşdirildi. Xüsusilə kənd təsərrüfatının inkişafına yönəlmiş siyasət ərzaq təhlükəsizliyinin təmin olunmasına, kənd yerlərində həyat səviyyəsinin yüksəldilməsinə və aqrar sektorun modernləşdirilməsinə mühüm töhfə verdi. Fermerlərin fəaliyyətinin stimullaşdırılması, torpaq islahatlarının həyata keçirilməsi və kənd təsərrüfatı istehsalının genişləndirilməsi nəticəsində bu sahədə davamlı inkişaf meyilləri formalaşdı. Sosial proqramların icrası, əhalinin həssas təbəqələrinin müdafiəsinin gücləndirilməsi və sosial təminat sisteminin təkmilləşdirilməsi isə ümumi rifahın yüksəlməsinə xidmət edən əsas amillərdən biri oldu.

Maliyyə sabitliyinin təmin olunması Ümummilli Lider Heydər Əliyevin sosial-iqtisadi siyasətində mühüm yer tuturdu və bu istiqamətdə həyata keçirilən tədbirlər iqtisadiyyatın dayanıqlığını artırdı. Milli valyutanın sabitliyinin qorunması, inflyasiyanın nəzarət altına alınması və pul-kredit siyasətinin səmərəli təşkili makroiqtisadi sabitliyin təmin edilməsinə imkan verdi. Bank-maliyyə sektorunda aparılan islahatlar nəticəsində maliyyə institutlarının fəaliyyəti təkmilləşdirildi, kredit resurslarına çıxış imkanları genişləndirildi və iqtisadi subyektlərin maliyyə dayanıqlığı gücləndirildi. Büdcə siyasətində şəffaflığın artırılması, gəlir və xərclərin səmərəli idarə olunması, strateji ehtiyatların formalaşdırılması kimi addımlar iqtisadi təhlükəsizliyin təmin olunmasına xidmət etdi. Bütün bu tədbirlər nəticəsində iqtisadi sistemdə sabitlik möhkəmləndirildi, davamlı inkişaf üçün etibarlı zəmin yaradıldı və gələcək iqtisadi yüksəlişin əsasları formalaşdırıldı.

Təhsil sahəsində həyata keçirilən siyasət gələcəyə hesablanmış strateji istiqamətlərdən biri kimi xüsusi əhəmiyyət daşıyırdı və Ulu Öndər Heydər Əliyev bu sahəni dövlət quruculuğunun əsas dayaqlarından biri kimi qiymətləndirirdi. Onun təşəbbüsü ilə təhsil sistemində köklü və məqsədyönlü islahatlar həyata keçirildi, ümumtəhsil və ali məktəblərin maddi-texniki bazası əhəmiyyətli dərəcədə gücləndirildi, yeni təhsil ocaqları tikildi və mövcud müəssisələr əsaslı şəkildə yenidən quruldu. Müasir tədris metodlarının tətbiqi, proqram və dərsliklərin yenilənməsi, pedaqoji kadrların peşəkarlığının artırılması istiqamətində görülən işlər təhsilin keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə səbəb oldu. Bu islahatlar nəticəsində yalnız nəzəri biliklərə deyil, həm də praktik bacarıqlara malik, müasir çağırışlara cavab verən yeni nəsil mütəxəssislərin hazırlanması üçün geniş imkanlar yarandı.

Xaricdə təhsil imkanlarının genişləndirilməsi isə insan kapitalının inkişafına yönəlmiş mühüm addımlardan biri idi. Gənclərin dünyanın nüfuzlu ali təhsil müəssisələrində təhsil alması üçün yaradılan şərait onların beynəlxalq təcrübə qazanmasına, yeni bilik və texnologiyalarla tanış olmasına imkan verdi. Bu gənclər Vətənə qayıtdıqdan sonra müxtəlif sahələrdə - dövlət idarəçiliyində, iqtisadiyyatda, elm və texnologiya sahələrində fəal iştirak edərək ümumi inkişaf prosesinə mühüm töhfələr verdilər. Eyni zamanda, milli dəyərlərə əsaslanan təhsil siyasəti vətənpərvərlik ruhunun formalaşdırılmasına, gənc nəslin milli kimliyə və dövlətçilik ənənələrinə bağlı şəkildə yetişdirilməsinə xidmət edirdi. Bu yanaşma təhsilin yalnız bilik verməklə məhdudlaşmadığını, həm də mənəvi-ideoloji baxımdan sağlam və məsuliyyətli vətəndaşların formalaşdırılmasında mühüm rol oynadığını bir daha təsdiqlədi. Ulu Öndərin müəyyən etdiyi strateji xətt Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Həyata keçirilən ardıcıl siyasət nəticəsində dövlətimiz daha da güclənmiş, iqtisadi potensial artmış və müasir çağırışlara uyğun inkişaf təmin olunmuşdur. Xüsusilə ordu quruculuğu sahəsində görülən işlər müdafiə qabiliyyətinin əhəmiyyətli dərəcədə yüksəlməsinə gətirib çıxarmışdır.

2020-ci ildə 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfər milli birliyin, güclü siyasi iradənin və düzgün strategiyanın nəticəsi kimi tarixə düşüb. Bu Qələbə uzun illər davam edən münaqişəyə son qoyaraq ölkəmizin ərazi bütövlüyünün bərpası istiqamətində mühüm dönüş nöqtəsi olub. 2023-cü il sentyabrın 19-20-də həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycanın suverenliyi tam təmin olunub və dövlət nəzarəti bütün ərazilərdə bərpa edilib. Bu əlamətdar hadisə müasir tarixdə mühüm mərhələ kimi qiymətləndirilir və əldə olunan uğurların məntiqi davamı kimi çıxış edir. Şanlı zəfərlər nəticəsində dövlətimizin beynəlxalq arenada mövqeləri daha da möhkəmlənib.

# Ey dünya şöhrətli cənab Prezident!

*Ümummilli Lider HEYDƏR ƏLİYEV cənablarına həsr edirəm!*

Bir bayraq altında birləşdi insan,
Öpərək bayrağı keçdi altından.
Səsinə səs verdi bu Azərbaycan,
Ey dünya şöhrətli cənab Prezident!
***
Yenilməz Prezident adını aldın,
Azərbaycan partiyasın yaratdın.
Nəhənglər önündə çox mərd dayandın,
Ey dünya şöhrətli cənab Prezident!
***
Yeni Azərbaycan partiyasın sən,
Gələcək nəsillərə töhfə vermisən.
Bir bayraq altında cəmləşdirmisən,
Ey dünya şöhrətli cənab Prezident!
***
Yenidən bir həyat özün yaratdın,
Qurdun bu dövləti arzuna çatdın.
Ulduzlu bayrağı göyə ucaltdın,
Ey dünya şöhrətli cənab Prezident!
***
Minlərlə gənclərin oldun dayağı,
Göylərə ucaltdın şanlı bayrağı.
Yüksək qarşıladın gələn qonağı,
Ey dünya şöhrətli cənab Prezident!
***
Yadlara vermədin sən bu dövləti,
Yayıldı hər yana şanı, şöhrəti.
Dildə əzbər oldu sözü, söhbəti,
Ey dünya şöhrətli cənab Prezident!
***
ULU ÖNDƏRİ dəstəklə, Süleyman,
Tarixə həkk olsun yazılsın dastan.
Görsün bütün dünya eşitsin cahan,
Dünya şöhrətlidir cənab Prezident!

***Sultansəncər Süleyman***
***BAKI-22.03.1994***

# Azərbaycan sülhə və regional inkişafa töhfə verir



*Aybəniz Əliyeva, Binəqədi RİH yanında İctimai Şuranın üzvü*

2026-cı il 4 may tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısında videobağlantı vasitəsilə etdiyi çıxışla postmünaqişə dövründə formalaşdırdığı yeni siyasi reallığı, sülh quruculuğu fəlsəfəsini və suverenlik prinsipinə əsaslanan diplomatik iradəsini aydın şəkildə nümayiş etdirir. Dövlət başçımız çıxışında postmünaqişə dövründə Cənubi Qafqazın transformasiyası, regional əməkdaşlıq modellərinin yenidən qurulması kimi məsələlərə toxundu. Dövlət başçımız Ermənistanın 2028-ci ildə Avropa Siyasi Birliyinin növbəti Zirvə görüşünün Azərbaycanda keçirilməsinidəstəklədiyini bildirdi. Bu isə iki ölkə arasında münasibətlərin normallaşması istiqamətində mühüm göstəricisidir. Bu Azərbaycanın 2026-cı ildə Ermənistanda keçirilən Zirvə görüşünə əvvəlcədən dəstək verməsi və qarşılıqlı olaraq 2028-ci il üçün Bakının namizədliyinin qəbul edilməsi diplomatik qarşılıqlılıq prinsipinin real tətbiqidir.

Onu da qeyd etmək istəyirəm ki, dövlətimizin 1990-cı illərin əvvəllərindən Ermənistana tətbiq etdiyi tranzit məhdudiyyətlərini birtərəfli qaydada aradan qaldırması mühüm siyasi iradənin göstəricisidir. Artıq Azərbaycan ərazisi vasitəsilə Ermənistana 28 min ton yük çatdırılıb. Bundan əlavə, ölkəmiz ilk dəfə olaraq neft məhsullarını - benzin və dizeli Ermənistana ixrac edib və bu çərçivədə 12 min ton məhsul tədarük olunub. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvü olsa da, 2024-cü ildə AŞPA tərəfindən nümayəndə heyətimizə qarşı tətbiq edilən məhdudiyyətlər ədalətli yanaşma ilə uzlaşmır. Xüsusilə bu qərarın 2023-cü ilin sentyabr hadisələrindən sonra qəbul olunması onun siyasi mahiyyətini açıq göstərir. Azərbaycan BMT Təhlükəsizlik Şurasının 1993-cü il qətnamələrinin icrasını öz gücü ilə təmin edib. Bu, beynəlxalq hüququn və ərazi bütövlüyü prinsipinin bərpasıdır. Eyni zamanda, Avropa Parlamentinin son illərdə Azərbaycanla bağlı qəbul etdiyi çoxsaylı sənədlər selektiv yanaşmanın göstəricisidir. Bu reallıq beynəlxalq institutların obyektivliyi ilə bağlı ciddi suallar yaradır. Azərbaycan parlamentinin Avropa strukturları ilə əməkdaşlığa yenidən baxması suveren siyasi qərardır. Ümumiyyətlə, Azərbaycan daimi beynəlxalq hüquqa hörmətlə yanaşan bütün dövlətlərlə rəqabət deyil, əməkdaşlıq etməyə üstünlük verən, olduğu məkana sülh daşıyan dünyəvi bir dövlətdir.

Beləliklə, Prezident İlham Əliyevin "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısında videobağlantı formatında çıxışı Azərbaycanın beynəlxalq münasibətlər sistemində konstruktiv və tarazlı siyasət yürütməkdə davam etdiyini bir daha nümayiş etdirdi.

# Qərb Ermənistanda "çadır qurur" - hədəfdə Ankara və Bakı da var

*Mətləb Salahov: "Avropalı siyasətçilər öz köhnə siyasi xəstəliklərindən əl çəkənə oxşamırlar"*



"Ermənistanın paytaxtı İrəvanda keçirilən "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısı həm də Qərb ölkələrinin bölgəmizlə bağlı gələcək planları baxımından mühüm mesajlarla zəngindir. İrəvana gələn Avropa liderləri tədbirin mahiyyətindən kənara çıxaraq birbaşa Nikol Paşinyan hakimiyyətinə siyasi dəstək nümayiş etdirir, qarşıdakı müddətdə Avropa siyasi qurumlarının rəsmi İrəvanla sıx işbirliyi quracağını elan edirlər. Halbuki onların bu siyasi canfəşanlığı bölgənin əsas güc mərkəzi olan və həmin Avropa dövlətlərini qazla təmin edən Azərbaycana münasibətdə gözə görünmür. Açıq şəkildə Azərbaycana bir başqa, Ermənistana isə bir başqa münasibət ortaya çıxır. Bu, onilliklərdir ki, Qərb siyasətinin ayrı-seçkilik iyrəncliyinin növbəti nümayişidir. Demək ki, Qərb öz köhnə siyasi xəstəliyindən əl çəkənə oxşamır".

Bu fikirləri SİA-ya açıqlamasında jurnalist-ekspert Mətləb Salahov bildirib. O qeyd edib ki, Qərb liderlərinin İrəvandakı bəyanatları daha çox Rusiya əleyhinə qurulacaq planların işartısıdır. "Onların bəyanatları daha çox anti-Rusiya ritorikası üzərində qurulub. Xüsusilə gələn ay keçiriləcək parlament seçkilərində N.Paşinyanın siyasi komandasının qələbəsi üçün var gücləri ilə dəstək nümayiş etdirirlər. Burda məqsəd Moskvanın İrəvandakı siyasi və ideoloji rıçaqlarını birdəfəlik kəsmək, bölgədə Ermənistanı İranın təsir və maraq dairəsindən uzaqlaşdırmaq habelə rəsmi Bakı və Ankara əleyhinə siyasi ab-hava yaratmaqdır. Belə görünür ki, Qərbin Ermənistan "sevgisi" yenidən alovlanıb və İrəvan Qərb üçün "bufer zona"ya çevrilir".

***Afət Tahirqızı***



**Elçin Bayramlı**

# Azərbaycan toyuna tutulan toy

***Milli mədəniyyətimizin ən mühüm elementlərindən biri olan toy mərasimləri artıq öz mahiyyətini itirib və eybəcər formaya salınıb. Azərbaycan toyu" deyilən anlayış demək olar ki, yoxa çıxıb. Bəzi ucqar kəndlərdə ənənəvi elementlər qorunsa da, ümumi mənzərədə bu mərasimlər artıq toy deyil. Bugünkü toylar hədsiz israfçılığın, dəbdəbənin, hay-küyün və özünü göstərmək meylinin hökm sürdüyü şou mərasimə çevrilib. Bugünkü toylarda artıq gəlinin "Vağzalı" ilə gətirilməsi ləğv olunub, tiyda səslənən mahnıların çoxu əcnəbi mahnılardır. Bu, artıq mənəvi dəyər üzərində qurulan ailə mərasimi yox, maddi dəyərlər üzərində qurulan nümayiş xarakterli şou-konsertdir.***

Halbuki toy ailə qurulmasının təntənəli qeydidir və mənəvi məzmun daşımalıdır. Son dövrlərdə isə bu mərasimlər "müasirlik" adı altında ifrata varıb, nəzarətdən çıxıb. Bu vəziyyət insanlara həm maddi, həm də mənəvi baxımdan ciddi zərər vurur. Toylar bir-biri ilə yarışa çevrilib: bahalı geyimlər, qızıl əşyalar, şişirdilmiş menyular, çoxsaylı və lazımsız xidmətlər bu yarışın əsas elementləridir. Üçmərtəbəli süfrələr, hədsiz yemək çeşidləri açıq israfçılıqdır və artıq normadan kənardır. Bundan əlavə, toy mərasimlərində səs səviyyəsi ciddi problemə çevrilib. Həddindən artıq yüksək musiqi insanların sağlamlığına mənfi təsir göstərir və bu, artıq "akustik terror" səviyyəsinə çatır. Bütün bunlar toyun mahiyyətinin tamamilə deformasiyaya uğradığını göstərir.

Ən ciddi problemlərdən biri də sosial-iqtisadi yükdür. Ənənəvi olaraq toyda verilən hədiyyə və pul yardımları yeni qurulan ailəyə dəstək məqsədi daşıyırdı. Lakin hazırda toy xərcləri o qədər artıb ki, ailələr bu mərasimdən borcla, kreditlə çıxır. Toplanan vəsait isə ailəyə yox, əsasən restoranlara, şadlıq evlərinə və müxtəlif xidmət sahələrinə yönəlir. Nəticədə yeni ailə dəstək almaq əvəzinə borc yükü ilə üz-üzə qalır. Bu vəziyyət xüsusilə aztəminatlı ailələr üçün daha ağırdır. Yüksək toy xərcləri bir çox gəncin evliliyini gecikdirir, hətta qeyri-mümkün edir. Çünki toy təkcə mərasimdən ibarət deyil, cehiz, qızıl, digər xərclər də ciddi maliyyə yükü yaradır.

Digər problem isə qonaq sayının süni şəkildə artırılmasıdır. Cəmiyyətdə belə bir yanaşma formalaşıb ki, toyda yüzlərlə insan iştirak etməlidir. Halbuki dünya təcrübəsində toylar daha çox yaxın qohum və dostların iştirakı ilə, məhdud sayda keçirilir. Bizdə isə 300-500 nəfərlik toylar adi hal alıb. Bu, həm də cəmiyyət üçün əlavə maliyyə yükü yaradır. Elə ailələr var ki, bir ay ərzində bir neçə toy dəvətnaməsi alır və hər biri üçün müəyyən məbləğdə pul vermək məcburiyyətində qalır. Aylıq gəlirləri aşağı olan ailələr üçün bu, ciddi sosial problemə çevrilir.

Beləliklə, toy mərasimləri artıq mənəvi mahiyyətini itirmiş, cəmiyyətə zərər vuran şouya çevrilib. Bunun Azərbaycan mədəniyyəti və milli dəyərlərlə birbaşa əlaqəsi yoxdur. Çıxış yollarına gəldikdə isə, bu məsələ illərdir müzakirə olunur. Dünyada və region ölkələrində bu sahədə müəyyən məhdudiyyətlər və standartlar tətbiq edilib. Məsələn, bəzi Orta Asiya ölkələrində toyların formatı qanunvericiliklə tənzimlənir. Bu, Azərbaycanda da bu, problemin həllinin mümkün olduğunu göstərir. Görünən odur ki, insanlar könüllü şəkildə bu dəyişikliklərə getmədiyi üçün inzibati mexanizmlərə ehtiyac yaranır.

Toy sektorunda da standartlar müəyyən edilməlidir. Məsələn, restoranların məcburi şəkildə şişirdilmiş menyular təqdim etməsi aradan qaldırılmalı, sadə və sərfəli seçimlərə imkan verilməlidir. Eyni zamanda, bahalı geyimlər, avtomobillər, yüksək qonorar tələb edən ifaçılar kimi əlavə xərclər zəruri element kimi təqdim olunmamalıdır. Bundan başqa, qida təhlükəsizliyi və xidmət keyfiyyəti üzərində də ciddi nəzarət olmalıdır. Çünki bəzi hallarda keyfiyyətsiz məhsullar insanların sağlamlığı üçün risk yaradır.

Ümumilikdə, toyların sadə, mənəvi məzmunlu və iqtisadi baxımdan əlçatan formada keçirilməsi təmin olunmalıdır. Verilən hədiyyə və maddi dəstək birbaşa yeni qurulan ailəyə yönəlməlidir. Bu problemin həlli üçün dövlət səviyyəsində ictimai şura yaradılması, müvafiq qurumların və ziyalıların iştirakı ilə vahid qaydaların müəyyənləşdirilməsi məqsədəuyğundur.

# *Talassemiya:* qohum nikahlarında risk faktoru

***Talassemiya Günü hər il 8 may tarixində qeyd olunur. Bu günün məqsədi xəstəlik barədə maarifləndirmə aparmaq, xəstələrə dəstək olmaq və erkən diaqnostikanın vacibliyini vurğulamaqdır. Bu gün ilk dəfə 1994-cü ildə beynəlxalq talassemiya təşkilatlarının təşəbbüsü ilə qeyd edilməyə başlanıb.***



Talassemiya qanda hemoqlobinin normal yaranmaması ilə bağlı irsi qan xəstəliyidir. Hemoqlobin qırmızı qan hüceyrələrində oksigeni daşıyan maddədir. Talassemiya zamanı orqanizm kifayət qədər sağlam hemoqlobin istehsal edə bilmir və bu da qanazlığına səbəb olur. Talassemiya genetikdir, yəni valideynlərdən uşağa keçir. Əgər ana və ata talassemiya daşıyıcısıdırsa, uşağın xəstə doğulma ehtimalı olur. Talassemiya daşıyıcılığı olan insanın ciddi şikayəti olmaya bilər, amma eyni zamanda geni ötürə bilər. Talassemiya minor xəstəliyin yüngül formasıdır, talassemiya major isə ağır formadır və uşaqlıqdan müalicə tələb edir. Xəstəliyin əlamətləri güclü halsızlıq, solğun dəri, tez yorulma, nəfəs darlığı, uşaqlarda inkişafın ləngiməsi, sümük defomasiyaları, qaraciyər və dalağın böyüməsidir. Talassemiyanın formasından asılı olaraq müntəzəm qan köçürülməsinə, dəmirin orqanizmdən çıxarılması üçün dərmanlara, vitamin dəstəyinə, bəzi hallarda sümük iliyi transplantasiyasına ehtiyac olur. Bəs talassemiyanın qarşısını almaq mümkündürmü? Bəli. Bunun ən vacib yol nikahdan əvvəl və hamiləlik zamanı müayinələrdir. Beynəlxalq Talassemiya Federasiyası və bir çox səhiyyə qurumları erkən diaqnostika və maarifləndirmənin xəstəliyin yayılmasının azalmasında vacib rol oynadığını bildirir.

Qohum nikahların talassemiya xəstələrinin sayının artmasına səbəb olması barədə olduqca çox tibbi məlumatlar və araşdırmalar mövcuddur. Ümümdünya Səhiyyə Təşkilatının məlumatına görə dünya əhalisinin 12 faizini sağlamlıq imkanları məhdud insanlar təşkil edir ki, onların 40,5 faizinin ata-anaları qohumdurlar. Araşdırmalara görə qohum nikahlar genetik xəstəlikləri artıran önəmli tibbi faktordur. Bizim genlərimiz xromosomlarımızda yerləşir. Hər birimizdə 23 cüt xromosom var. Dünyaya gələn körpənin hər bir cüt xromosomunun biri anadan, digəri atadan gəlir. Ata və ana da zamanında həmin genləri öz valideynlərindən götürüb. Əgər ata və ana ortaq əcdaddandırsa, məsələn, əmiuşağıdırsa deməli bu cütlüyün hər ikisinin valideyni eyni ata və ananın genlərini daşıyır. Yəni baba və nənə ortaq olduğu üçün xəstə genlərin ötürülməsi riski də çoxdur.

Gənc ata-ana öz ata və anasından aldığı eyni genləri öz uşaqlarına ötürürlər. Nəticədə ailə qurmuş qohum valideynlərin eyni genlərə sahib olma ehtimalı çoxalır. Bu genlərin arasında qüsurlu genlər də olduğu üçün hər iki valideyn dünyaya gələn uşağa həmin qüsurlu genləri ötürə bilirlər. Nəticədə hər iki valideyndən ötürülən qüsurlu gen yenidoğulmuşda özünü büruzə verir.

Hazırda ölkəmizdə 5300-dən artıq talassemiyalı xəstə var. Talassemiyalı xəstələrin bir çoxunun qohum nikahlardan doğulduğu bildirilir, qeydiyyatda olan talassemiyalı xəstələrdən eyni ailənin 2, 3, 4-cü xəstə övladı olduğu faktı da var. Yalnız talassemiyalı yox, eləcə də digər irsi xəstəliklərin yayılmasının əsas səbəblərindən biri olan qohum nikahlara tətbiq edilən qadağa bu sahədə irəliləyiş əldə etməyə kömək edəcək.

Xatırladaq ki, Azərbaycanda gələcək nəsillərin sağlamlığının qorunması və anadangəlmə xəstəliklərin qarşısının alınması məqsədilə 2025-ci ilin iyul ayının 1-ən etibarən qohum nikahlar qadağan edilib. Ailə Məcəlləsinin 12-ci maddəsinə ötən il edilən dəyişikliyə əsasən, ümumi bioloji babası və ya nənəsi olan əmioğlu ilə əmiqızı, xalaoğlu ilə xalaqızı, bibioğlu ilə dayıqızı, bibiqızı ilə dayıoğlu, həmçinin əmi ilə onun qardaşı qızı, dayı ilə onun bacısı qızı, bibi ilə onun qardaşı oğlu və xala ilə onun bacısı oğlu arasında nikahın bağlanmasına icazə verilmir.

Qadağanı nəzərə almayıb evlilik üçün müraciət edən tərəflər olar, lakin onlar arasında qohumluq münasibətlərinin olub-olmaması Ədliyyə Nazirliyinin informasiya sistemi vasitəsilə qeydiyyat şöbəsi, konsulluq idarəsi və ya icra hakimiyyəti nümayəndəliyinin vəzifəli şəxsi tərəfindən yoxlanılır, habelə nikaha daxil olmaq istəyən şəxslər və onların valideynlərinin doğum haqqında şəhadətnamələrinin surəti nikah ərizəsinə əlavə edilir. Unutmayın, qohum nikahlarının qadağan edilməsi Azərbaycan xalqının genefondunu qorumaq məqsədi daşıyır və bu qadağanın pozulması öz ailəsinə, gələcək övladına ediləcək ən böyük haqsızlıqdır.

***Lalə Mehralı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "ictimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb*

# Faşizmin və ermənizmin yayılmasının qarşısını almaq çətinləşir



Faşizm və ermənizm dünya dövlətləri və xalqları üçün təhlükə mənbəyi olaraq qalır. Hətta onlar nüvə silahından da təhlükəli hesab olunurlar. Çünki nüvə silahından istifadə riski demək olar ki, sıfıra bərabərdir. Yəni dünyanın güc mərkəzləri nüvə silahının yayılması və terrorçuların əlinə keçməməsi üçün müvafiq müqavilə imzalayıblar. Hansısa terrora meyilli dövlət nüvə silahı əldə etməyə xəyal edərsə, dərhal aparıcı dövlətlər onun qarşısını almağa çalışırlar. Buna misal olaraq, ABŞ-ın nüvə silahı əldə etməyə çalışan fars-molla rejiminə qarşı cəza tədbirləri həyata keçirməsini göstərmək olar. Artıq 40 günlük zərbələrdən sonra molla rejimi uranın zənginləşdirilməsinə və nüvə silahı əldə etməkdən imtina edib. Tam nəticənin əldə edilməsi istiqamətində isə hələ ki, iş aparılır. Yəqin ki, yeni fəlakətlər və faciələrlə üzləşməmək üçün molla rejimi dünya birliyinin şərtlərini və tələblərini yerinə yetirməli olacaq. Bununla da terroru dövlət siyasətinə çevirən molla rejimi nüvə silahı əldə edə bilməyəcək. Nəticədə sivil dünya rahat nəfəs alacaq. Lakin faşizmin və ermənizmin yayılmasının qarşısını almaq mümkün deyil. Bu da hər iki terror ideologiyanın daşıyıcılarının fəaliyyətlərini müyyən müddətə qədər gizli aparıb, sonradan məqsədlərini həyata keçirmək üçün üzə çıxmalarıdır. Tarixi faktlara nəzər yetirək: 1880-ci ildə ermənilər tərəfindən yaradılmış "Armenakan" təşkilatı bir necə il gizli fəaliyyət göstərmiş və nəhayət 1885-ci ildə fürsət yarandığı anlayaraq üzə çıxıb, Türkiyənin Van, Muş, Bitlis,Trabzon bölgələrində və İstanbulda silahlı toqquşmalar və terror aktları törədiblər. İlk terror aktları zamanı 10 minə yaxın insan qətlə yetirilmişdir.

## "Daşnaksütyun"un şüarı: "azərbaycanlını hər yerdə, hər bir şəraitdə öldür"

1890-cı ildə Tiflisdə yaradılan "Daşnaksütyun" partiyası Azərbaycanın Naxçıvan, Qarabağ və Türkiyənin Anadolu torpaqlarında "Böyük Ermənistan" dövləti yaratmaq üçün terror vasitəsindən istifadə ediblər. 1892-ci ildə Tiflisdə ilk qurultayını keçirən "Daşnaksütyun" türklərə və azərbaycanlılara qarşı suiqəsdlərin təşkil olunması barədə qərar çıxarmışdır. Qurultayda əsas şüarları və çıxışları - azərbaycanlını hər yerdə, hər bir şəraitdə öldür, sözündən dönənləri, erməni xainlərini öldür, intiqam al!- olmuşdur. Bu separatçı şüar terror təşkilatının rəhbərliyi tərəfindən sıravi üzvlərə, ümumiliklə bütün ermənilər üçün əmr hesab olunmuşdur. Əmri yerinə yetirməyənlər ciddi şəkildə cəzalanırdılar. 1973-cü ildə fəaliyyətə başlamış "Erməni intiqamçıları" qrupu 1980-1982-ci illər ərzində Avstriya, Danimarka və Portuqaliyada türk diplomatlarını qətlə yetirmişlər. "Erməni gizli azadlıq ordusu" 1975-ci ildə Beyrutda yaradılıb. Mənzil-qərargahı Dəməşqdə yerləşir. Fəaliyyətinin ilk 6 ilində təşkilat dünyanın müxtəlif ölkəsində 19 türk diplomatının ölümünə səbəb olan terror aktları keçirib. 1975-ci ildə yaradılan "ASALA"-nın qərargahı Beyrutda, təlim-məşq bazaları isə Suriyada yerləşir. Təşkilatın məqsədi Türkiyə və Azərbaycan vətəndaşlarına qarşı terror aktları həyata keçirir. Təşkilat "Əbu Nidal", "Qara sentyabr" kimi terror qrupları ilə əməkdaşlıq etməsində əsas fiqurlardan biri "ASALA"-nın lideri Akop Akopyan olmuşdur. Afinada 1980-ci ildə qətlə yetirilmiş türk səfirinin ölümünə görə məsuliyyəti öz üzərinə götürmüş A. Akopyan"Nyu-York Tayms" qəzetinin 1980-ci il 1 avqust sayına verdiyi müsahibəsində bildirmişdir ki, onların hədəfi türklər və azərbaycanlılardır: "Bizim düşmənimiz türkdir. O türklərə qarşı növbəti terror aktı törətməyə cəhd edən zaman 28. 04. 1988-ci ildə Afina şəhərində öldürülmüşdür. Livanda 1980-ci ilin aprelində "ASALA" birgə terror aksiyalarının keçirilməsinə dair PKK ilə razılığa gəlmiş və bu niyyətlərini rəsmiləşdirmişlər. Beyrut şəhərində 28. 08. 1993-cü ildə açıqlanmasında bildirmişdir ki, "ASALA" Bakı-Tbilisi-Ceyhan ilə bağlı layihənin həyata keçirilməsinə imkan verməyəcək. Dəfələrlə kəmərə qarşı terror aktlarını da məhz "ASALA" həyata keçirmişdir.

## Faşizmə qarşı mübarizədə azərbaycanlılar böyük qəhrəmanlıqlar göstəriblər

Azərbaycan xalqı olaraq faşizmindən də böyük əziyyətlər çəkib, məşəqqətlər görüb, minlərlə insan itkisi ilə üzləşmişik. İkinci dünya müharibəsi illərində 600 mindən çox azərbaycanlı cəbhəyə yollandı, onların yarıdan çoxu həyatını itirdi, yarımçıq ömür yaşadı. İkinci Dünya müharibəsinin başlanması ilə əlaqədar olaraq SSRİ rəhbəri İosif Stalinin 1941-ci ilin 18 oktyabr tarixli əmrinə əsasən azərbaycanlılardan ibarət 77-ci dağatıcı diviziyası, 223-cü, 396-cı, 402-ci və 416-cı milli atıcı diviziyaları yaradılaraq Zaqafqaziya hərbi dairəsində yerləşdirildi, 44-cü, 45-ci və 46-cı orduların tərkibinə daxil edildilər.Azərbaycanlılardan ibarət 416-cı, 402-ci, 396-cı, 223-cü, 77-ci və s. milli diviziyalar Simferopolun, Odessanın və digər şəhərlərin, 77-ci diviziya Polşa və Çexoslovakiyanın, 223-cü diviziya Yuqoslaviyanın azad olunmasında fəal iştirak etdi, 416-cı diviziya Qafqazdan Berlinə qədər böyük döyüş yolu keçdi, Berlinin süquta yetirilməsində xüsusi fəallıq göstərdi.

General-mayor Həzi Aslanov Brezna çayını keçərək Pleseni şəhərinin və 508 yaşayış məntəqəsinin azad edilməsində xüsusi xidmətlərinə görə ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Azərbaycanlı əsgər və zabitlər 1942-ci ildə Şimali Qafqazın və 1943-cü ildə Ukraynanın azad edilməsi uğrunda döyüşlərdə fəal iştirak etdi, nasist ordusunun darmadağın edilməsində sovet silahlı qüvvələrinə yaxından köməklik göstərdilər. Şimali Qafqaz uğrunda döyüşdə Qafur Məmmədov və İdris Süleymanov göstərdikləri igidliyə görə Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görüldülər. Ukraynanın azad edilməsində böyük xidmətlərinə görə M.Məhərrəmova, M.Ələkbərova, Ə.Məmmədova və F.Səfərova Sovet İttifaqı Qəhrəmanı fəxri adı verildi.

Azərbaycanın oğul və qızları faşistlərin Buhenvald, Mauthauzen, Dahau, Zaksenhauzen, Ravensburyuk, Treblinka və başqaları ölüm düşərgələrində Avropa ölkələrinin antifaşistləri ilə birlikdə hitlerçilərə qarşı mübarizə aparmış və azərbaycanlı adına layiq fəaliyyət göstərmişdilər. 1942-1944-cü illərdə azərbaycanlı hərbi əsirlər Polşanın Edlin, Almaniyanın Noyhammer Ştranse, Fransanın Rodez, İtaliyanın Udine, Triyestin Opçina, Çexoslovakiyanın Brno və Bistritsa rayonlarında gizli antifaşist təşkilatları yarada bilmişdilər.

1943-cü ildə faşistlərin Almaniyanın Stranse əsir düşərgəsindən İtaliyaya, Triyestə və Yuqoslaviyaya köçürdüyü sovet hərbi əsirləri içərisində xeyli azərbaycanlı olub. Onlar gizli antifaşist təşkilatı yaratmışdılar. Təşkilatın rəhbərliyinə Mehdi Hüseynzadə, Mirdamət Seyidov, Cavad Həkimli və başqaları daxil olmuşdular.

Bütün bu tarixi reallıqlara əsasən qeyd edilməlidir ki, faşizm və ermənizm bəşəriyyət üçün dəhşətli faciələr yaradıblar. Düzdür yuxarıda qeyd etdiyim kimi onlara qarşı əməliyyatlar keçirilb və zərərsizləşdirliblər. Lakin hazırda Avropada cərəyan edən hadisələr, xüsusilə də Almaniyanın, Fransanın, Niderlandın, eləcə də Ermənistandakı bəzi revanşistlərin ermənizmin və faşizmin cücərdilməsinə xidmət edən açıqlamaları onu deməyə əsas verir ki, təhlükə hər an üzə çıxa bilər. Ona görə də, dünyanın sivil xalqları ayıq-sayıq və ehtiyatlı olmalıdır.

***İ. ƏLİYEV***

# Heydər Əliyevin dövlətçilik strategiyasında qadın siyasətinin rolu

Heydər Əliyevin ömür yolu Vətənə xidmətin parlaq nümunəsinə çevrilib. Xalqımızın taleyində ötən əsrin 70-ci illərindən XXI əsrin əvvəllərinədək taleyüklü bir dövrdə öz adını əməlləri, cəsarətli addımları və milli təfəkkürü ilə Azərbaycanın ictimai-siyasi fikir tarixinə həkk etmiş Heydər Əliyevin çoxşaxəli fəaliyyəti gənc nəsil üçün parlaq və əvəzolunmaz bir örnəkdir. Ümummilli Lider Azərbaycan dövlətçiliyinin bütün vacib sferalarının möhkəmləndirilməsi ilə yanaşı, güclü vətəndaş cəmiyyətinin formalaşması məsələsini də prioritet istiqamət kimi diqqətində saxlayırdı.

Azərbaycan dövlətçilik tarixin-



*Fidan Hüseynova*
*YAP Quba rayon təşkilatının sədri*



də qadınların cəmiyyətdəki mövqeyinin möhkəmləndirilməsi məsələsi hər zaman xüsusi əhəmiyyət kəsb etmişdir. Lakin bu istiqamətin ardıcıl, məqsədyönlü və sistemli dövlət siyasətinə çevrilməsi bilavasitə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Onun siyasi irsi bir daha təsdiq edir ki, qadın məsələsi yalnız sosial siyasətin tərkib hissəsi deyil, bütövlükdə dövlət quruculuğunun, milli inkişaf strategiyasının və ictimai tərəqqinin aparıcı istiqamətlərindən biridir.

Ulu Öndər qadınların cəmiyyətdə rolunu yalnız ailə institutu çərçivəsində deyil, dövlətçilik amili kimi dəyərləndirirdi. O qeyd edirdi ki, "Qadın cəmiyyətin mənəvi dayağıdır", bu fikir onun qadın siyasətinin fəlsəfi əsasını təşkil edirdi. Heydər Əliyevin yanaşmasına görə, xalqın inkişaf səviyyəsi, milli kimliyinin qorunması və gələcək potensialı qadınların savadı, fəallığı və ictimai mövqeyi ilə birbaşa bağlıdır. Bu baxımdan onun qadın siyasəti milli-mənəvi dəyərlərlə müasir inkişaf prinsiplərinin üzvi vəhdətinə əsaslanırdı.

Heydər Əliyev 1969-cu ildə respublikamıza ilk dəfə rəhbər təyin edildiyi vaxtdan etibarən fəaliyyətinin hər dövründə qadın problemləri və haqlarının müdafiəçisinə çevrilmişdir. Onun qadınlara olan münasibəti ailə həyatında, həyat yoldaşının timsalında da açıq aşkar bilinirdi. Zərifə xanım Əliyevaya verdiyi yüksək dəyər heç kimin diqqətindən yayınmazdı. Hər kəs onların bir-birilərinə necə qarşılıqlı hörmət münasibəti bəslədiklərinin şahidi olmuşdur. Ulu Öndər 2001-ci il aprelin 28-də Zərifə xanımın xatirəsinə həsr olunmuş gecədə söylədiyi bir fikri xatırlatmaq yerinə düşərdi: "...Mənim üçün o, birinci növbədə böyük bir insan idi. Zərifə xanım sədaqətli həyat yoldaşı, çox mehriban ana, mənim ailəmi, mənim uşaqlarımı, mənim nəvələrimi yaşadan, böyüdən bir fədakar insan kimi qəlbimdə yaşayır..."

Azərbaycan qadını Ulu Öndərin siyasi baxışında həm milli ənənələrin qoruyucusu, həm də müasir dövlətin fəal qurucusu kimi qəbul olunurdu. Bu konsepsiya təsadüfi deyildi. Çünki Heydər Əliyev qadın məsələsinə yalnız hüquqlar müstəvisində deyil, dövlətin dayanıqlı inkişafı, insan kapitalının formalaşması və milli təhlükəsizlik baxımından strateji məsələ kimi yanaşırdı. Onun fikrincə, qadınların ictimai fəallığının artması güclü dövlətin əsas şərtlərindən biridir.

Bu siyasətin mühüm istiqamətlərindən biri qadınların ictimai-siyasi həyatda rolunun artırılması idi. Ulu Öndərin rəhbərliyi dövründə qadınların dövlət idarəçiliyində, qanunverici orqanlarda və yerli özünüidarəetmədə iştirakında keyfiyyətcə yeni mərhələ başlandı. Qadınların qərar qəbuletmə proseslərinə cəlb olunması, onların liderlik imkanlarının genişləndirilməsi istiqamətində atılan addımlar dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrildi. Nəticədə qadınlar yalnız sosial sahələrdə deyil, iqtisadiyyat, elm, təhsil və idarəçilikdə də fəal mövqe tutmağa başladılar.

Dövlət başçısı qadın problemlərinin dövlət səviyyəsində həlli üçün mühüm fərman da imzalamışdır. Və bununla da, 1998-ci ildə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Komitə qadın hüquqlarının müdafiəsi istiqamətində müstəsna əhəmiyyətli işlər görmüş, tədbirlər həyata keçirmişdir. Heydər Əliyevin iştirakı ilə elə həmin ildə Azərbaycan qadınlarının I qurultayı keçirilmişdir, qurultayında çıxış edərək demişdir: "Azərbaycan qadını tarix boyu öz ağlı, zəkası, namusu, qeyrəti, isməti ilə, fədakarlığı, çalışqanlığı, mərdliyi, vətənpərvərliyi ilə, millətinə, torpağına olan hədsiz məhəbbəti ilə və gözəlliyi, Azərbaycan xalqının xüsusiyyətləri ilə tanınmışdır. Ancaq bununla bərabər, əsrlər boyu Azərbaycan qadınının üzərinə böyük zəhmətlər düşmüşdür. O zəhməti də qadın həmişə mərdliklə, cəsarətlə çəkmişdir və heç vaxt bu zəhmətdən inciməmişdir. Azərbaycan qadınlarının bu qurultayları ölkədə qadın hərəkatının fəallaşmasının təsdiqi olmaqla yanaşı, Heydər Əliyevin qadın siyasətinin təntənəsi kimi tarixə çevrilib. Ulu Öndər vurğulayırdı ki, "Cəmiyyətin tərəqqisində qadınların rolu əvəzsizdir." Bu fikir sadəcə siyasi bəyanat deyil, həyata keçirilən siyasətin mahiyyəti idi. Qadın hüquqlarının qorunması, gender əsaslı ayrı-seçkiliyin aradan qaldırılması və sosial ədalətin təmin olunması bu yanaşmanın real nəticələrində əksini tapırdı.

Bu siyasət yalnız hüquqi və siyasi sahələrlə məhdudlaşmırdı. Heydər Əliyev qadınların sosial rifahının yüksəldilməsini, ana və uşaq sağlamlığının qorunmasını, sosial müdafiə mexanizmlərinin gücləndirilməsini də prioritet hesab edirdi. Qadınların məşğulluq imkanlarının artırılması, sahibkarlıq fəaliyyətinə cəlb olunması, iqtisadi müstəqilliyinin gücləndirilməsi istiqamətində görülən işlər bu siyasətin mühüm tərkib hissəsi idi. Heydər Əliyevin dövlətçilik strategiyasında qadının intellektual potensialı da xüsusi yer tuturdu. O hesab edirdi ki, savadlı qadın güclü cəmiyyət deməkdir. Bu baxımdan qadınların təhsil alması, elmi fəaliyyətdə iştirakı, peşəkar kadr kimi yetişməsi üçün geniş imkanların yaradılması onun strateji baxışının mühüm istiqaməti idi. Təhsil sahəsində həyata keçirilən islahatlar nəticəsində Azərbaycan qadını müxtəlif sahələrdə yüksək peşəkarlıq nümayiş etdirməyə başlamışdır.

Bu siyasətin tarixi kökləri də diqqətəlayiqdir. Azərbaycan qadınının Şərqdə ilk seçki hüququ əldə etmiş qadınlar sırasında olması və First Congress of Azerbaijani Women kimi mühüm tarixi ənənələr müasir qadın siyasətinin ideoloji əsasları ilə uzlaşırdı. Heydər Əliyev bu tarixi irsi qoruyaraq onu müasir dövlət siyasəti səviyyəsinə yüksəltmişdir. Qadınların mədəni və ictimai həyatda fəallığının artırılması da Ulu Öndərin diqqət mərkəzində idi. Onun təşəbbüsləri nəticəsində qadınların yaradıcılıq potensialının üzə çıxarılması, mədəniyyət və ictimai fəaliyyətdə daha geniş təmsil olunması üçün əlverişli mühit formalaşdırılmışdır. Bu isə Azərbaycan qadınının beynəlxalq müstəvidə nüfuzunun artmasına zəmin yaratmışdır.

Heydər Əliyevin qadın siyasətinin mühüm istiqamətlərindən biri də institusional yanaşma idi. Dövlət səviyyəsində qadın məsələləri ilə məşğul olan mexanizmlərin yaradılması, bu istiqamətdə sistemli fəaliyyətin qurulması qadın siyasətinin davamlılığını təmin etmişdir. Bu yanaşma qadın problemlərinə epizodik deyil, kompleks dövlət siyasəti prizmasından baxıldığını göstərirdi.

Regionlarda yaşayan qadınların inkişafı məsələsi də Ulu Öndərin diqqətindən kənarda qalmamışdır. Regionların sosial-iqtisadi inkişaf strategiyası çərçivəsində qadınların təhsil, məşğulluq və sosial xidmətlərə çıxış imkanlarının artırılması sosial bərabərlik siyasətinin mühüm tərkib hissəsinə çevrilmişdir. Bu, yalnız gender siyasəti deyil, eyni zamanda inklüziv inkişaf modelinin göstəricisi idi.

Qadınların ictimai fəallığının artırılması istiqamətində maarifləndirmə siyasəti də xüsusi yer tuturdu. Gender bərabərliyi ideyalarının təşviqi, stereotiplərin aradan qaldırılması və qadın hüquqları barədə ictimai şüurun formalaşdırılması uzunmüddətli sosial transformasiyanın əsas elementlərindən biri olmuşdur.

Bu gün Azərbaycan qadını dövlət idarəçiliyində, parlamentdə, biznes mühitində, elm və beynəlxalq platformalarda fəal təmsil olunur. Bu nailiyyətlər təsadüfi deyil , onlar Ulu Öndərin müəyyən etdiyi siyasi kursun məntiqi nəticəsidir. Müasir Azərbaycan qadını həm intellektual, həm peşəkar, həm də ictimai güc kimi ölkənin inkişafında mühüm rol oynayır. Nəticə etibarilə, Heydər Əliyev tərəfindən formalaşdırılmış qadın siyasəti Azərbaycan dövlətçiliyinin mühüm sütunlarından biri kimi tarixə düşmüşdür. Bu siyasətin əsasını təşkil edən bərabərlik, sosial ədalət, humanizm və inkişaf prinsipləri bu gün də öz aktuallığını qoruyur. Bu siyasət yalnız bir dövrün siyasi xətti deyil, gələcəyə istiqamətlənmiş strateji inkişaf modelidir. Onun başlıca məqsədi qadınların cəmiyyətdə tamhüquqlu, fəal və təsirli iştirakını təmin etməklə güclü, müasir və dayanıqlı dövlət quruculuğuna nail olmaqdır.

Yaxın tarixə nəzər salanda bir daha şahid oluruq ki, Heydər Əliyev dühasının xalqı, vətəni yolunda etdiyi fədakarlıqlar, göstərdiyi xidmətlər, atdığı addımlar unudula bilməz. Çünki onun xatirəsini, gördüyü işləri, xalqımız qarşısındakı xidmətlərini yaddan çıxartmaq mümkün deyil. O, xalqımız qarşısında nümunəyə çevrilib. Heydər Əliyevin müəyyən etdiyi siyasət nəticəsində ölkəmiz inkişaf yolunda inamla irəliləmiş, mühüm nailiyyətlər əldə etmişdir, bunlardan ən uğurlusu isə yürütdüyü siyasi xəttin oğlu cənab Prezident İlham Əliyev tərəfindən yeni meyarlarla zənginləşdirilərək yüksək səviyyədə, müvəffəqiyyətlə davam etdirilməsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda dövlət qadın siyasəti yüksəliş mərhələsinə qədəm qoymuşdur. Dövlətimizin qadınlarla bağlı yürütdüyü siyasət bu sahədə Azərbaycanı öncül dövlətlər sırasına gətirib.

Bu gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva öz geniş fəaliyyəti ilə beynəlxalq aləmdə Azərbaycan qadınının nüfuzunu daha da yüksəklərə qaldırır. Fəxrlə deyə bilərik ki, onun simasında dünya dövlətlərinə dərin bilik və intellekt sahibi olan gözəl ziyalı, peşəkar siyasətçi, humanist Azərbaycan qadını obrazı təqdim olunur. Mehriban xanımın gördüyü işlərin mühüm göstəricisi Heydər Əliyev Fondunun timsalında əks olunub. Heydər Əliyev Fondu Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə Ümumilli Lider Heydər Əliyevin zəngin irsindən bəhrələnərək bu işə xidmət edən genişmiqyaslı proqram və layihələrin reallaşmasını və digər mühüm işlərin icrasını təmin edir. Fond Azərbaycan xalqının öz böyük siyasətçisi Heydər Əliyevin xatirəsinə ehtiramını ifadə etmək arzusu və istəyinin nəticəsidir, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək zərurətidir. Ümummilli Liderin zəngin irsinin daha dərindən və hərtərəfli öyrənilməsi, onun yaratdığı milli dövlətçilik və Azərbaycançılıq ideyaları və ölkə mədəniyyətinin geniş təbliği Heydər Əliyev siyasətinə verilən önəmin göstəricisidir.

Ulu Öndərin anadan olmasının 103-cü ildönümü münasibətilə onun zəngin siyasi irsinə, xüsusilə qadın siyasəti sahəsində müəyyən etdiyi strateji kursa bir daha nəzər salmaq böyük əhəmiyyət daşıyır. Bu irs Azərbaycan qadınının cəmiyyətdə rolunu daha da möhkəmləndirəcək, dövlətimizin inkişafına yeni töhfələr verəcəkdir. Bu baxımdan Heydər Əliyevin qadın siyasəti təkcə tarix deyil - bu günün və gələcəyin inkişaf konsepsiyasıdır.

# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Ziya LTD – 0124977696, 0503067744**
**7. Bakmətbuat MMC 0502644010**

**1 nüsxə 1 aylığı 8 AZN**
**6 aylıq 48 AZN**
**1 illik 96 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Yeni tikililərdə ən çox şikayət edilən problem hansıdır?



Son illərdə Azərbaycanda Mənzil Tikinti Kooperativləri (MTK) ilə sakinlər arasında yaranan mübahisələr ən çox müzakirə olunan hüquqi və sosial problemlərdən birinə çevrilib. Mənzil alan vətəndaşların əsas narazılıqları adətən müqavilədə göstərilən sahə ilə faktiki sahə arasındakı fərq, tikintinin keyfiyyəti, binanın vaxtında təhvil verilməməsi, kommunal və idarəetmə haqları, eləcə də çıxarış məsələləri ilə bağlı olur. Xüsusilə yeni tikililərdə bəzi MTK-ların müqavilədə göstərilən kvadratmetri sonradan fərqli hesablaması, eyvan və texniki sahələri də mənzilə daxil etməsi, yaxud mənzili gecikdirilmiş formada təhvil verməsi sakinlərlə şirkətlər arasında ciddi hüquqi qarşıdurmalar yaradır. SİA mövzu ilə bağlı araşdırma edib.

Araşdırmalar və məhkəmə təcrübəsi göstərir ki, ən çox rast gəlinən problemlərdən biri mənzil sahəsinin şişirdilmiş formada hesablanmasıdır. Bir çox hallarda alıcı müqavilədə göstərilən sahəyə uyğun ödəniş edir, lakin çıxarış təqdim olunarkən mənzilin faktiki sahəsinin daha az olduğu ortaya çıxır. Ekspertlər bildirirlər ki, bəzi MTK-lar daxili və xarici divarları, şaxta boşluqlarını və digər texniki hissələri də ümumi sahəyə daxil edərək vətəndaşdan artıq ödəniş alırlar. Nəticədə sakin həm artıq vəsait ödəyir, həm də sonradan kommunal xərcləri daha yüksək hesablanır.

Digər mühüm narazılıq isə tikintinin keyfiyyəti ilə bağlıdır. Sakinlər əsasən binada çatların yaranması, səs və istilik izolyasiyasının zəif olması, lift və kommunikasiya sistemlərinin keyfiyyətsiz quraşdırılması, zirzəmi və dam örtüyündə problemlərin olması kimi məsələlərdən şikayət edirlər. Xüsusilə istismara tam hazır olmayan binaların sakinlərə təhvil verilməsi sonradan təhlükəsizlik və yaşayış problemlərinə səbəb olur. Gecikdirilmiş təhvil məsələsi də MTK-larla sakinlər arasında ən geniş yayılmış mübahisələrdəndir. Mənzil alan şəxslər müqavilədə göstərilən tarixdə evlərini təhvil ala bilmədikdə həm maddi, həm də mənəvi zərərə məruz qalırlar. Çünki bir çox ailə həmin müddətdə kirayədə qalmağa davam edir və əlavə maliyyə yükü ilə üzləşir. Hüquqi baxımdan müqavilədə təhvil müddəti göstərilibsə və MTK həmin öhdəliyi yerinə yetirmirsə, sakin məhkəməyə müraciət edərək dəymiş ziyanın ödənilməsini tələb edə bilər.

Bəs sakinlər tikinti keyfiyyətindən narazı qaldıqda MTK-ların hüquqi məsuliyyəti harada başlayır və harada bitir? Hüquqi baxımdan məsuliyyət ilk növbədə müqavilə şərtlərinin pozulduğu andan başlayır. Əgər mənzil müqavilədə nəzərdə tutulmuş keyfiyyət standartlarına uyğun təhvil verilməyibsə, MTK qüsurları aradan qaldırmalı, bəzi hallarda isə dəymiş zərəri kompensasiya etməlidir. Azərbaycan qanunvericiliyinə görə tikinti şirkəti təhlükəsizlik, dayanıqlılıq və texniki normalara görə məsuliyyət daşıyır. Əgər sonradan aşkar olunan qüsurlar tikintidən qaynaqlanırsa, sakin məhkəmə yolu ilə həm maddi ziyanın ödənilməsini, həm də qüsurların aradan qaldırılmasını tələb edə bilər. Lakin MTK-nın məsuliyyəti müəyyən həddə qədər davam edir.

Əgər problem sonradan sakin tərəfindən edilən dəyişikliklər, düzgün istifadə edilməməsi və ya üçüncü şəxslərin müdaxiləsi nəticəsində yaranıbsa, həmin hallarda məsuliyyət artıq MTK-nın üzərinə düşmür. Bundan əlavə, bəzi hallarda müqavilələrdə şirkətin məsuliyyətini məhdudlaşdıran şərtlər də yer alır. Hüquqşünaslar bildirirlər ki, vətəndaşlar mənzil alarkən müqavilənin bütün bəndlərini diqqətlə oxumalı, tikinti sənədlərini yoxlamalı və yalnız rəsmi icazələri olan layihələrə üstünlük verməlidirlər.

***Ayşən Vəli***

## Tibbi Xidmət İdarəsində "Gömrük və səhiyyə işçilərinin etika və peşə davranışı standartları" mövzusunda təlim keçirilib



5 may 2026-cı il tarixində Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsində "Gömrük və səhiyyə işçilərinin etika və peşə davranışı standartları" mövzusunda təlim keçirilib. "Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin Etik Davranış Kodeksi"nin tətbiq və təşviqinin təmin edilməsi məqsədilə həyata keçirilən təlimdə Tibbi Xidmət İdarəsinin və Mərkəzi Gömrük Hospitalının rəhbərliyi, şöbə rəisləri, həkimlər, rezidentlər, tibb bacıları və digər əməkdaşları iştirak ediblər.



Rəis müavini Şahlar Mirqasım qeyd edib ki, pasiyentlərlə ünsiyyət zamanı hörmət, həssaslıq, şəffaflıq və konfidensiallıq prinsiplərinin qorunması müasir səhiyyə sisteminin əsas tələblərindəndir. Onun sözlərinə görə, hər bir tibb işçisi öz fəaliyyətində humanizm, ədalətlilik və məsuliyyət prinsiplərini rəhbər tutmalı, pasiyentlərin hüquq və mənafelərinə xüsusi həssaslıqla yanaşmalıdır.

Eyni zamanda bildirilib ki, pasiyent məmnunluğunun təmin olunması yalnız tibbi xidmətin texniki səviyyəsi ilə deyil, həm də əməkdaşların etik davranışı, düzgün kommunikasiya bacarıqları və xidmət mədəniyyəti ilə sıx bağlıdır. Bu baxımdan etik normalara riayət olunması vətəndaşların səhiyyə müəssisələrinə olan etimadının möhkəmləndirilməsində əsas amillərdən biridir. Şahlar Mirqasım çıxışında əlavə edib ki, dövlət qurumlarında etik davranış standartlarının tətbiqi yalnız fərdi məsuliyyət məsələsi deyil, həm də institusional mədəniyyətin ayrılmaz hissəsidir. Bu səbəbdən belə təlimlərin keçirilməsi əməkdaşların etik biliklərinin artırılması, düzgün davranış modellərinin formalaşdırılması və ümumilikdə səhiyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Daha sonra Tibbi Xidmət İdarəsinin Hüquq şöbəsinin rəisi Rəna Hüseynova "Gömrük əməkdaşlarının etik davranış qaydaları" mövzusunda, Tibbi Xidmət İdarəsinin İnzibati İdarəetmənin Təşkili şöbəsinin inspektoru Elmira Axundova "Etik davranış qaydalarına inzibati nəzarət" mövzusunda və Tibbi Xidmət İdarəsinin elmi-təcrübi tədris mütəxəssisi Şəhla Mirzəzadə "Tibbi etika və deontologiya" mövzusunda çıxış ediblər.

İnteraktiv müzakirələrlə davam edən təlim zamanı iştirakçıları maraqlandıran suallar cavablandırılıb, real situasiyalar əsasında fikir mübadiləsi aparılıb.

## ELAN

**"Nərimanov Sənayetikinti" ASC səhmdarlarının nəzərinə!**

22 iyun 2026-cı il saat 11.00-da "Nərimanov Sənayetikinti" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

1. Cəmiyyətin direktorunun hesabatı.
2. Cəmiyyətin 2025-ci il üzrə maliyyə -təsərrüfat fəaliyyətinin hesabatlarının müzakirəsi və təsdiqi.

***3. Əlaqə telefonu: 496-94-68***
***Ünvan: Az 1008, Bakı şəhəri, Nərimanov rayonu, Qarabağ küçəsi, 22***

## BAŞSAĞLIĞI

Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov və təşkilatın kollektivi Suraxanı rayonu İcra Hakimiyyətinin məsul əməkdaşı, ərazi partiya təşkilatının sədri, veteran YAP üzvü,

**Fətullayev Nazim Hüseynalı oğlunun**

vəfatından kədərləndiyini bildirir, ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin!***


***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,**
**Üzeyir Hacıbəyli**
**küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet həftədə iki dəfə nəşr olunur
**Tiraj: 2000**